# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 72 (3396) Cümə axşamı / 12-18 avqust 2021-ci il Qiyməti 40 qəpik


# Rusiya sülhməramlılarına xəbərdarlıq



***Azərbaycan Müdafiə Nazirliyi mətbuata açıqlama yayıb. Hafta.az-ın xəbərinə görə, açıqlamada deyilir:***

*”10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb. Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.*

*Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülür və bu kimi hallara imkan verilmir. Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün bu kimi təxribatlara əl atır.*

*Bütün bunlar Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verir. Xatırlatmaq istərdik ki, Ermənistanın sabiq müdafiə naziri David Tonayan da “yeni müharibələr, yeni ərazilər” adlandırdığı təxribatçı hərbi doktrina ilə çıxış etmişdi. Onun rüsvayçı aqibəti hər kəsə məlumdur.*

*Azərbaycan Ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunacaqdır.*

*Rusiya Federasiyası sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır”.*



***Rusiya hərbçiləri yenidən Qarabağda təlimlər keçiriblər. Təlimlərdə immitasiya edərək, minaatanlardan istifadə etməklə 50 hədəfi məhv ediblər. Minaatanlardan istifadə edərək sülhməramlıların qarşıdakı hədəfləri məhv etməsi nə dərəcədə sülhməramlıların missiyasına daxildir?***



**Üzeyir Cəfərov,**
hərbi ekspert

**■ Bu vəziyyəti hafta.az-a şərh edən hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, döyüş qabiliyyətlərini unutmamaq baxımından hardasa belə hərbi təlimlərin keçirilməsini qəbul etmək olar. Amma rus sülhməramlılarının bu addımı qəbuledilməzdir.**

“Son vaxtlar Rusiya sülhməramlıları ilə bağlı çox narahatlıq dolu xəbərlər gəlir. Artıq Azərbaycan tərəfi məsələ ilə bağlı qarşı

> “
> *Rus sülhməramlıları arasında sərxoşluq, əyyaşlıq halları var*

tərəfə öz qəti mövqeyini çatdırmalıdır”. Ü.Cəfərov bildirib ki, son günlər Ermənistandan Qarabağa hərbçilər daşınır, mülki əhali gətirilir. Bu, bir hərbçi kimi məni çox narahat edən məsələlərdir.

“Dünəndən başlayaraq sosial şəbəkələr üzərindən Rusiya sülhməramlılarının komandiri Rüstəm Muradovun ünvanına tənqidi mesajlarımı ünvanlamışam. Görünür rus sülhməramlıları çox ağıllanıblar, ermənilərin hərəkətlərinə göz yumurlar. Əlbəttə ki, bu prosesdə Rüstəm Muradov heç bir səlahiyyəti olmayan bir şəxsdir.

Ona Rostov ermənillərindən və Moskvadan göstərişlər gəlir. Bütün göstərişlər də Kremldən idarə olunur. Maraqlı qüvvələr var ki, gərginliyin davam etməsində maraqlıdır. Son bir ay ərzində Ermənistanın indiki müdafiə naziri Rüstəm Muradovla həm telefonla danışıb, həm də Moskvaya iki dəfə səfər edib. Bu ondan irəli gəlir ki, Moskva öz vassalına konkret tapşırıqlar verir. Ona görə də hər gün Naxçıvan və yaxud da Kəlbəcər istiqamətində atəşkəsin pozulmasının şahidi oluruq. Aydın məsələdir ki, bu atəşlər rusun təlimatı ilə açılır. Ermənistan hansı vəziyyətdədir ki, Azərbaycana belə dil uzadır? Belə davam edərsə, Azərbaycan cəmiyyəti tələb edəcək ki, Rusiya sühməramlıları ərazini tərk eləsinlər. Bu, rusun, russevərlərin xoşuna gəlməsə də, Azərbaycan məsələni kəskin şəkildə qoyacaq. Biz buna nə vaxta qədər dözəcəyik? Əsgərlərimiz yaralanır, şəhid olur. Çox məsələlərdə rus sülhməramlıları özlərini tərbiyəsiz aparırlar. Rus sülhməramlıları arasında sərxoşluq, əyyaşlıq halları var. Rus sülhməramlıları birbaşa funksional vəzifələrindən başqa bütün işlərlə məşğul olurlar. 10 Noyabr Bəyannaməsinin 4-cü bəndində rus sülhməramlıların nə iş görməsi göstərilib. Azərbaycan vətəndaşı olaraq rus sülhməramlılarının özlərini aparmalarına qarşı nifrətimi bildirirəm”. Hərbi ekspert hesab edir ki, ruslar hərbi təlimlər zamanı bir növ özlərini göstərirlər.

“Onlar “biz istənilən an hədəfi nişan alıb vura bilərik” deyirlər. Rus sülhməramlılarının həyasızlığı qəbuledilməzdir. Rus sülhməramlıları təlimlər keçirmək istəyirlərsə gedib Gümrüdə də bunu edə bilərlər. Məqsəd orada qarışıqlıq yaratmaqdır. Narahatam ki, rusun göz yumduğu revanşist qüvvələr bir gün silahı çox şeylərdən xəbərsiz olan bizim əsgər və zabitlərinmizə tərəf yönəldə blərlər”.

***✍ Tahirə Qafarlı***

## MÜSAHİB

# Zəngəzurun “mübahisəli ərazi” elan edildiyi gün



**Maksim Musayev,**
Azərbaycan Parlamentinin sabiq deputatı

***Azərbaycan Parlamentinin sabiq deputatı, Qərbi Azərbaycanda doğulub boya-başa çatmış, işləmiş Maksim Musayevlə “Həftə içi” üçün növbəti söhbətimizdə Zəngəzur dəhlizinin açılmasına Ermənistandakı sadə ermənilərin, siyasətçi və oliqarxların münasibəti, Paşinyana yaxın telekanal və saytların bu istiqamətdə apardığı təbliğat, Qarabağ klanının bundan sonrakı taleyi və s. haqda danışdıq.***

*20 iyun parlament seçkilərindən öncə Ermənistan müxalifəti Zəngəzur dəhlizi məsələsində çox aqressiv idi*

Səh. 3

## SORĞU



**Rus qoşunları Azərbaycan-Ermənistan sərhədində - Nə etməliyik?**

■ Ermənistanın yeganə çıxış yolu ərazi iddialarına son qoyaraq Azərbaycan və Türkiyə ilə əməkdaşlıq yolu seçməkdir...

■ KTMT ciddi bir təşkilat deyil və təbii ki, bu prosesə qarşı addımlarımızı atmalıyıq...

■ KTMT-nın birgə qoşunarının Azərbaycan-Ermənistan sərhəddində yerləşməsi qərarı hələlik həllini tapmayıb...

Səh. 5

## GÜNÜN FOTOSU...



**Ermənistan uşaqları hərbi əməliyyatlara cəlb edir...**

## GÜNÜN SİTATI

> *Bu mübariz çərçivəsində bizə dünyanın hər tərəfindən yardımlar edilir. Amma ən önəmli yardımı dost və qardaş Azərbaycandan aldıq*



**Bekir Pakdemir,**
Türkiyənin Kənd və meşə təsərrüfatı naziri

## KARİKATURA



**Bir qığılcım...**

# Zəngəzur qədim Azərbaycan torpağıdır

**Cəbi Bəhramov,**
Tarix İnstitutunun icraçı direktoru

8 Noyabr Zəfərinin ardınca Zəngəzur dəhlizi və onun zəfəri gəlir.

Səh. 3

## STATİSTİKA



■ Bu ilin birinci yarımilində dövlət qeydiyyatına alınan nikahların sayı açıqlanıb. İlin I yarımilində 23233 nikah dövlət qeydiyyatına alınıb.

■ Bu ilin birinci yarımilində dövlət qeydiyyatına alınan doğum sayları açıqlanıb. İlin I yarımilində 56 301 doğum dövlət qeydiyyatına alınıb.

■ Bu ilin I yarımilindı qeydiyyat orqanlarında 976 adın, ata adının və soyadın dəyişdirilməsi dövlət qeydiyyatına alınıb.



Səh. 7

# Ermənistandan gələn azərbaycanlıların haqlı tələbi

## PREZİDENTİN İŞ GÜNÜ

**Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Neft Şirkətinə yeni vitse-prezident təyin edib. Dövlət başçısının sərəncamı ilə Kənan Təhməz oğlu Nəcəfov Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilib.**

Prezidentin digər sərəncamı ilə Zaur Aydın oğlu Qurbanov da Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilib. Xatırladaq ki, ötən ay Prezident İlham Əliyevin sərəncamları ilə 4 vitse-prezident vəzifəsindən azad edilmişdi.



# Azərbaycan İrana nota verdi



**Bu gün İran İslam Respublikasının ölkəmizdəki səfiri XİN-ə dəvət olunub. XİN-dən hafta.az-a verilən məlumata görə, görüşdə səfirin diqqəti İran İslam Respublikasına məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edilib və bununla bağlı qarşı tərəfə nota təqdim edilib.**

Notada son dövrlər dost İran İslam Respublikasına məxsus müxtəlif təyinatlı avtomobillərin davamlı olaraq rəsmi Bakının icazəsi olmadan Azərbaycanın Qarabağ bölgəsinə giriş-çıxış etməsi ilə bağlı narazılığımız ifadə olunub. Bir müddət öncə İran tərəfinə şifahi şəkildə çatdırılmış narazılığımız, görüş zamanı bir daha İran səfirinin qarşısında qaldırılıb.

Görüş zamanı, bu kimi narahatlıq doğuran və iki ölkə arasında mövcud yaxın dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun gəlməyən hallara son qoyulması istiqamətində İranın yeni administrasiyası tərəfindən əməli addımların atılacağı qeyd olunub.

# Məcburi köçkünlər üçün evlər yalnız...

**Məcburi köçkünlər üçün yeni yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunacaq. Bu, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin açıqlamasında deyilir:**

Avqustun 11-də Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Eldar Zeynalov Ağdam rayonundan məcburi köçkün, Bakı şəhərinin Suraxanı rayonunda müvəqqəti qeydiyyatda olan Əliyeva Mahirə Firidun qızını onlayn qaydada qəbul edib. Vətəndaş M.F.Əliyevanın müraciəti Bakı şəhərinin Xətai rayonundakı göz xəstəxanasının inzibati binasında - yarımçıq tikilidə müvəqqəti məskunlaşmış oğlu Quliyev İlkin Mətləb oğlunun çoxuşaqlı ailəsinin mənzillə təmin edilməsi barədə olub. Quliyev İlkin Mətləb oğlunun ailə vəziyyəti nəzərər alınaraq, onların Ağdam rayonunun Quzanlı qəsəbəsində inşa edilmiş yeni binada üçotaqlı mənzilə köçürülməsi təklif olunub. Lakin ailə Dövlət Komitəsinin təklifini qəbul etməyib: ”Onlayn qəbuldan sonra, saat 13-14 radələrində gənc bir qadın beş azyaşlı uşaqla Dövlət Komitəsinin inzibati binasındakı “Qəbul otağı”na gələrək, özü haqqında heç bir məlumat vermədən “Bu uşaqlara baxa bilmirəm, götürün, uşaq evinə verin”, - deyərək komitə əməkdaşlarının çağırışlarına məhəl qoymadan binanı tərk edib.

Uşaqlarla söhbət zamanı ailənin faktiki yaşayış ünvanı müəyyənləşdirilib və bu zaman aydın olub ki, onlar vətəndaş M.F.Əliyevanın oğlu İlkin Quliyevin övladlarıdır. Valideynləri müəyyənləşdirildikdən sonra uşaqlar öz ailəsinə təhvil verilib.

Qeyd edilməlidir ki, uşaqları komitənin binasında qoyub gedən ana - Quliyeva Səbinə Arif qızı özü Ağdam rayonunun işğal altına düşməyən Paşabəyli kəndində daimi qeydiyyatdadır və məcburi köçkün deyildir.

Dövlət Komitəsi bir daha bəyan edir ki, məcburi köçkünlər üçün yeni yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunacaqdır. Bakı şəhərinin Xətai rayonundakı göz xəstəxanasının inzibati binasında - yarımçıq tikilidə müvəqqəti məskunlaşmış 191 məcburi köçkün ailəsi də, qanunvericilikdə nəzərdə tutulan qaydada, həmin ərazilərdə yeni yaşayış sahəsi ilə təmin ediləcəkdir”.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Qarabağdakı ermənilərin sayının azalması qaçılmazdır

## Müsahib

***Politoloq, araşdırmaçı jurnalist Elçin Alıoğlu ilə hafta.az üçün növbəti söhbətimizdə Rusiya Dövlət Dumasının vitse-spikeri V.Jirinovskinin Azərbaycana qarşı son sərsəm açıqlamaları, Rusiya sülhməramlılarının Qarabağda dövlətimizin suverenliyinə hörmətsizlik nümayiş etdirən anormal davranışları və yaydıqları rəsmi məlumatlardakı inzibati yanlışlıqları, Qarabağdakı separatçı rejimin oyuncaq rəhbəri Araik Arutyunyanın Rusiya hərbi kontingentinin Qarabağda daimi qalması haqqında çağırışı və s. mövzulara toxunduq.***



**Elçin Alıoğlu,**
politoloq, araşdırmaçı jurnalist

***- Elçin bəy, sizin şərhləriniz çox zaman orijinal fikirlərlə digərlərinkindən fərqlənir. Odur ki, üzərindən bir müddət keçməsinə rəğmən Rusiya Liberal Demokrat Partiyasının sədri, Dövlət Dumasının vitse-spikeri V.Jirinovskinin Azərbaycana qarşı son sərsəm bəyanatına münasibətinizi açıqlasanız, oxucularımız üçün maraqlı olar...***

- Ümumiyyətlə, həmişə Rusiya LDP sədri V.Jirinovskinin açıqlamalarını şərh etməməyə çalışıram. Onun açıqlamaları psixogenetika və psixiatriyanın sahəsidir. Jirinovski siyasi təlxək və eyni zamanda siyasi məddahdır. Onu qeyri-ciddi qəbul etmək də olmaz. Jirinovski Kremlin zondaj vasitəsidir. O, elə bir maneken və marionetdir ki, Kreml cəmiyyətin bu və ya digər məsələlərə reaksiyasını öyrənmək üçün lazımi informasiya sızıntısını ilk olaraq onun dili ilə səsləndirir. Təbii, hər kəsin söz demək hüququ var, söz azadlığı var. Rusiyada istənilən adam Azərbaycan haqqında istədiyi sözü demək hüququna malikdir. Bu, demokratiyanın təməl prinsiplərindən biridir. Jirinovskinin bu cür danışması artıq qeyri-ciddi qəbul edilə bilməz. Niyə? O, həm Rusiya Dövlət Dumasının vitsespikeridir, həm partiya sədridir. Həm də sürəkli olaraq Rusiyanın federal telekanallarında müxtəlif verilişlərdə çıxış edərək müxtəlif məsələlərə rəy və fikir bildirir, bəyanatlar verir. Əslində, Jirinovskiyə yox, onu danışdıran qüvvələrə cavab verməliyik. LDPR liderini həddindən artıq ciddiyə olmaq, ona malik olduğundan çox önəm də vermək niyyətimiz olmamalıdır. Biz onun arxasında duran qüvvələri düşünməliyik. Bu yolla gedəndə bizə hansısa it hürürsə, o heyvan iki səbəbdən hürə bilər. Birincisi, fərdi təşəbbüsü ilə, ikincisi, sahibinin onu üzərimizə qısqırtması səbəbindən... Fərdi təşəbbüsü ilə hürən itlər çoxdur. Rusiyada belə dırnaqarası “siyasət biliciləri”, deputatlar çoxdur. Onlar fərdi təşəbbüsləri ilə yox, ermənilərin onlara verdikləri paradan irəli gələn borcluluq səbəbindən Azərbaycana müxtəlif ittihamlar irəli sürürlər. Jirinovskinin arxasında da bəlli qüvvələr dayanır. Bunlar Rusiyada olan revizionist, şovinist, Rusiya hərbi sənaye komleksini təmsil edən qüvvələrdir. Onlar Jirinovskini danışdırırlar. SSRİ-nin əvvəlki sərhədləri əsasında bərpa olunması xəyalı ilə bu “siyasi bostan” müqəvvası ilə bizi qorxutmağa çalışırlar. Moskvadakı həmin qüvvələr daim çalışırlar ki, Rusiya ətrafında olan dövlətləri bu və ya digər şəkildə təsir və geo-siyasi təzyiq altında saxlasınlar. Budur Jirinovskinin sözlərinin arxasında duran məqam...

***- Jirinovskinin məlum çıxışından bir gün öncə - iyulun 29-da Rusiya Müdafiə Nazirliyinin rəsmi saytının Azərbaycan torpağındakı sülhməramlı kontingentlə bağlı bölməsində Laçın rayonu “Dağlıq Qarabağın Laçın rayonu” kimi təqdim edildi. Üstəlik, Rusiya hərbçiləri Laçın dəhlizində yerləşən və heç bir vaxt ermənilərin kompakt şəkildə yaşamadığı Laçın şəhəri və rayonun Zabux kəndində son 30 ilə yaxın işğal müddətində qanunsuz məskunlaşmış ermənilərə yardım etdilər. Azərbaycanın rəsmi qurumları buna heç bir reaksiya vermədi. Buna normal yanaşmaq olarmı? Özü də nəzərə almaq lazımdır ki, 10 Noyabr üçtərəfli razılaşmasından bəri oxşar hallar dəfələrlə təkrar olunur...***

- Laçın rayonunda Zabux çayının sahilində ermənilər tərəfindən “Aqavno” adlandırılmış Zabux kəndində 2014-cü ildən bəri 98 kotej tikilib. Həmin kotejlərdə Livandan, Suriyadan və s. ölkələrdən qanunsuz olaraq gətirilib yerləşdirilmiş ermənilər yaşayır. Həmin “Aqavno” kəndinin qanunsuz “kənd icması”nın sədri də Livan ermənisidir. Deməli, Zabuxda və Laçın şəhərindəki ermənilərdən heç biri 1988-ci ildən bu yerlərdə yaşamayıb. Laçın rayonu işğal ediləndə belə, orada bir nəfər yerli erməni sakin olmayıb. Zabuxda bəhs edilən kəndin salınması isə işğal edilmiş ərazilərdə demoqrafik situasiyanın süni şəkildə dəyişdirilməsinə yönəlmiş qüvvələrin, daha doğrusu, Ermənistan rəhbərliyinin siyasətinin nəticəsi idi. Və həmin qondarma “Aqavno” kəndi də “Hayastan” ümumerməni fondunun maliyyəsi hesabına tikilib. İndi isə Qarabağda hələlik Rusiya sülhməramlı qüvvələrinin operativ nəzarət sahəsi olan ərazilərdən müxtəlif məkanlarda yaşayış kompleksləri tikilir. Məsələn, Xankəndidə 126 mənzillik beşmərtəbəli bina tikilir. Ağdərədə, Xocalıda, Xocavənddə və s. yerlərdə də tikilir. Ermənilər elə düşünürlər ki, bu, əbədidir. Əslində, buna reaksiyam çox normaldır: tiksinlər - bizə qalacaq... Necə Ağoğlanda, Füzulidə, Kəlbəcərdə, Laçında az-çox tikdikləri bizə qaldı, bunlar da qalacaq... Rusiya bütün bunlara niyə göz yumur və şərait yaradır? Rusiya Müdafiə Nazirliyinin rəsmi saytı texniki səhvlər adı altında gah operativ nəzarətdə olan ərazilərin xəritələrini özbaşına dəyişir, gah postların yerini düzgün göstərmir. Bu, səbəb-nəticə qanunlarına uyğun olaraq heç bir halda təsadüf sayıla bilməz. Heç bir halda... Bəs Rusiyanın məqsədi nədir? Burada hər şey çox sadədir. Laotszı demişkən, əlavə mahiyyət uydurmağa da ehtiyac yoxdur. Rusiya sülhməramlılarının Qarabağdakı mövcudluğunu şərtləndirən əsas məsələ oradakı yerli erməni əhalidir. Nə qədər ki, Qarabağda kompakt yaşayan ermənilər var və onlar olmayan “hüquq” və “status”larını tələb edəcəklər, Rusiya sülhməramlılarının orada qalması şərtdir. Ona görə Rusiya bütün imkanlara əl ataraq, bütün diplomatik vasitələrdən yararlanaraq çalışır ki, Qarabağdakı ermənilərin sayı azalmasın. Bu isə belə olan deyil. Qarabağdakı ermənilərin sayı get-gedə azalacaq. Bu, qaçılmaz bir prosesdir. Proses ondan ibarətdir ki, orada iqtisadi, social, yaşam şərtləri və digər məsələlərin hamısı ermənilərin Qarabağdan köçünü şərtləndirir. Bu köç artdıqca da Rusiya sülhməramlıları oranı tərk etməyə məcbur olacaqlar. Bizim bu prosesə təkan verməyimiz, bizim bu prosesə müdaxilə etməyimiz gərəkdir, ancaq buna o qədər böyük zərurət yoxdur. Bir bənzətmə, analogiya aparaq: bir aşsüzəndir, oraya nə qədər su töksəniz də, su qalmayacaq, axacaq. Rusiya müdafiə və xarici işlər nazirlikləri nə dəqər Ermənistandan Qarabağa köçü təşviq etsə də, buna milyonlarla rubl ayırsalar da, bu işin perspektivi yoxdur. Məsələn, srağagün Xankəndideki separatçı rejimin rəhbəri Araik Arutyunyan Rusiyaya yazılı müraciət edərək, Qarabağdakı köçkün ermənilər üçün 1000 modul ev istəyib. Tutaq ki, həmin modul evlər gəldi. Lap deyək, hərəsinə ikimərtəbəli villa tikildi və orada yaşadılar. Həmin ermənilər harada işləyəcək? İşləsələr belə, aldıqları maaşı harada və necə xərcləyəcəklər? Xərcləməyə yerləri olsa belə, nə alacaqlar? Almağa nələri olsa belə, onları harada emal və istehsal edəcəklər? Yəni suallar həddindən artıq çoxdur. Qarabağlı ermənilər hətta bu günlərdə belə məsələ qaldırıblar ki, Rusiya sülhməramlılarının əli ilə Qarabağda yeni SES tiksinlər. Orada olan SES-lərin 97 faizi artıq ermənilərin əlində deyil... Bir sözlə, ermənilərin Azərbaycan torpağında yaşadığı yer gettoya dönüb. Orada rəsmi statistikaya görə, 24 min 824 erməni var, reallıqda isə 12 mindən artıq deyil. 12 min adama hansı statusdan söhbət gedə bilər? Hara baxsan, Rusiyanın niyyətləri qapalı halqaya düşür. Status vermək məqsədi olsa belə, 12 min erməniyə dünyanın heç bir yerində status verilmir. İkincisi, status ona görə verilməyəcək ki, Azərbaycanda Qarabağ ermənisi adlı etnos yoxdur. Talışlar, ləzgilər, udinlər, tatlar, yəhudilər, dağ yəhudiləri, avarlar var və b. Bunların hamısı xalqdır. “Qarabağlı erməni” adlı xalq dünyada, etnoqrafiya elmində də yoxdur. Rusiyanın bütün cəhdləri yalnız “velikorus” şovinizminin təbliğatına, təşviqatına, eyni zamanda təsbitlənməsinə can atan qüvvələrin maraqlarına xidmət edir.

*Araik Arutyunyan heç kimdir, o, sürgündə olan Eritreya hökuməti kimi bir şeydir*

*Laçın dəhlizi açıqdır, ya Azərbaycan qanunlarına tabe olacaqlar, ya da rədd olub gedəcəklər...*

Məlumdur ki, Rusiyada iki əsas təməl ideya var: “böyük Rusiya” və “biz qələbə qazanmış millətik”. 1945-ci ildəki qələbə ilə hələ də fəxr edən bir millətin gələcəyə doğru yönəlmiş sabit, səbatlı, praqmatik diplomatiyasını görmürəm...

- Bütün binlara rəğmən Rusiyanın nəinki Müdafiə Nazirliyi, elə Xarici İşlər Nazirliyi də rəsmi açıqlamalarında “Dağlıq Qarabağ” birləşməsini işlətməkdə davam edir. Halbuki, Azərbaycan Prezidenti də dəfələrlə vurğulayıb ki, çağdaş Azərbaycan Respublikasının izibati ərazisində belə bir inzibati ərazi vahidi yoxdur...

- Dəfələrlə deyilib ki, Azərbaycanda “Dağlıq Qarabağ”adlı inzibati vahid yoxdur. Əvvəla, 1991-ci ildən Dağlıq Qarabağ Muxtar Vilayətinin(DQMV) ləğv olunması haqda Azərbaycan Respublikası Ali Sovetinin qərarı var. İkincisi, DQMV yoxdursa, Dağlıq Qarabağ da yoxdur. Olan 28 il ərzində Dağlıq Qarabağ münaqişəsi idi. Onun da kökündə iki preamplua vardı: birincisi, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində olması, ikincisi, Azərbaycan ərazilərinin işğal faktoru. 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda geo-siyasi reallığı dəyişdiyi kimi, bəhs edilən iki preambuladakı məsələni də aradan qaldırdı. Yəni artıq nə Dağlıq Qarabağ var, nə də orada erməni qoşunları var. Ona görə də “Dağlıq Qarabağ” söz birləşməsinin işlənməsi yanlışdır. Oraya istədikləri kimi “Papua-Qvineya” desinlər, Madaqaskar da deyə bilərlər. Bununla heç nə dəyişməyəcək...

***- Elçin bəy, dediklərinizdən belə çıxır ki, Azərbaycan dövlətinin Rusiyanın Müdafiə Nazirliyi və digər qurumlarının “Daqlıq Qarabağ”, “Daqlıq Qarabağın Laçın rayonu, yaxud Kəlbəcər rayonu” kimi yanlış inzibati birləşmələr işlətmələrinə reaksiya verməsinə ehtiyac yoxdur...***

- Buna qətiyyən lüzum yoxdur... Qarabağ erməniləri deyirlər ki, milli müqəddəratı təyinetmə hüququ var. Tamam, var. “Biz azad yaşamaq istəyirik”- Yaşayın. “Azərbaycandan ayrı yaşamaq istəyirik”. Lap yaxşı, biz etiraz etmirik. Laçın dəhlizi var, buyurun, Azərbaycan ərazisindən çıxın, gedin Ermənistanda öz milli müqəddəratınızı təyin edin. Rusiyada özünüzə status axtarın. Krasnodarda 200 min, Moskvada 1 milyon, Sankt-Peterburqda 400 min erməni yaşayır. 12 min çoxdur, yoxsa 1 milyon? Gedin qoşulun Rusiyadakı, yaxud Gürcüstandakı Samse-Cavaxetiyadakı ermənilərə, status tələb edin. Laçın dəhlizi açıqdır. Ya Azərbaycan qanunlarına tabe olacaqlar, ya da rədd olub gedəcəklər... İkisindən birini seçməlidirlər. Əgər futbol meydançasına futbol oynamaq üçün girmişəmsə, orada deyə bilmərəm ki, mənim burada basketbol oynamaq hüququm var. Basketbol oynamaq istəyən getsin basketbol arenasında oynasın. Bu qədər bəsit...



***- Bəs separatçı-terrorçu rejimin oyuncaq başçısı Araik Arutyunyanın bu günlərdə Rusiya hərbi kontingentinin Qarabağda daimi qalması haqqında çağırışına necə baxırsınız? Bu, Rusiyadan təlimatlandırılmış çıxış ola bilərmi?***

- Araik Arutyunyan heç kimdir. O, sürgündə olan Eritreya hökuməti kimi bir şeydir. Sürgündə olan, Londonda bir otağa yığışmış 3 nəfərdən ibarət Suriya hökuməti kimi bir şeydir, yəni Araik komik bir fiqurdur. Özü bunun fərqində deyil. Xankəndidə Rusiya hərbçilərinin daimi mövcudluğunu təmin etməyə çalışır. Bu, baş tutan sevda deyil. Dünən - avqustun 4-də 7 Qərb dövləti, o cümlədən ABŞ, Böyük Britaniya və Fransa Rusiyadan Abxaziya və Cənubi Osetiyanın tanınması haqda qərarını ləğv etməsini və silahlı qüvvələrini dərhal Gürcüstanın suveren ərazilərindən geri çəkməsini tələb ediblər. Yəni Kreml bu gün hansısa bir ada dövlətinə, məsələn, Nauru adadövlətinə, əslində onun prezidentinə 250 min dollar rüşvət verərək Abxaziyanı və Osetiyanı tanıtdıra bilər. Hansı sayılan dövlət Abxaziyanı və Osetiyanı tanıyıb? Varmı belə biri? Yoxdur. Rusiya, uzaqbaşı, Nikaraquaya, Venesuelaya rüşvət verib həmin qondarma qurumları tanıtdıra bilər. Qarabağı heç bir dövlətə tanıtdıra bilməz. Bu problemin artıq mənşəyi də yoxdur. Buna görə də Araik istədiyini deyə bilər, istədiyi çağırışı edə bilər. Rusiya orada istədiyi qədər bina tikdirə bilər. Sonda hamısı bizə qalacaq...

**✍ Sultan**

## Tarix

# Zəngəzur qədim Azərbaycan torpağıdır



**Cəbi Bəhramov,**
Tarix İnstitutunun icraçı direktoru

***Zəngəzurlu Azərbaycan tariximiz 44 günlük Vətən müharibəsindən, 1 əsr işğal fasiləsindən sonra yenidən gündəmə gəlib. Azərbaycan öz tarixi keçmişinə qayıdır - zəfəri, uğurları ilə... Bu gün Zəngəzur dəhlizinin açılması tələbi Azərbaycanın geosiyasi reallığına uyğun ölkəmiz üçün hansı yeni qapıları açır? “Həftə içi” qəzetinin onlayn televiziyasında və eyniadlı saytımızda Tarix İnstitutunun icraçı direktoru Cəbi Bəhramovla birgə Zəngəzur dəhlizindən tarixə baxış edəcəyik.***

***- Cəbi müəllim, 1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra, bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Azərbaycan SSR hökuməti 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan tələb edir ki, Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləsin. Əvəzində isə nə baş verir: imperialist qüvvələr Azərbaycan üçün hansı işğal xəritəsini hazırlayır?***

- Birinci növbədə onu qeyd etmək istəyirəm ki, Zəngəzur qədim Azərbaycan torpağıdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra Qacarlar İranı ilə Çar Rusiyası arasında Azərbaycan torpaqları bölüşdürüldü. O cümlədən Zəngəzur - hansı ki, Qarabağın qərb hissəsini əhatə edirdi, o da Rusiya imperiyasının tərkibinə daxil oldu. 1828-ci ildən ta 1988-ci illərə qədər dünyanın müxtəlif ölkələrindən, xüsusilə Avropa, Asiya, o cümlədən Çar Rusiyasına həmsərhəd olan ölkələrdən Qacarlar İranı və Osmanlı Türkiyə ərazisindən ermənilərin köçürülmə siyasəti həyata keçirilir. Təkcə XX əsrin əvvəllərinə baxsanız, rus çar məmuru Şevrovun verdiyi məşhur bir ifadə var ki, orada “1 milyon 300 min erməninin 1 milyonunu biz köçürmüşük”, -deyilir.

Əslində, sovet hökumətinin hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta yetirilib və bütün ərazi nəzarətə götürüldükdən sonra, təbii ki, Zəngəzur ərazisi də nəzarətə alınmalı idi. Məsələnin maraqlı tərəfi odur ki, cümhuriyyəti tanımayan Sovet Rusiyası gizli olaraq daşnak Ermənistanı ilə danışıqlar aparırdı.

Daşnak Ermənistanı deyilən ölkə necə yaradılmışdı? 1918-ci il may ayının 29-da cümhuriyyəti yaradanların bağışlanılmaz səhvi nəticəsində İrəvan və onun ətrafında 9 min kvadratkilometr ərazi ermənilərə güzəştə gedilib. Bu məsələ Tarix İnstitutu tərəfindən tədqiq olunub. Acı həqiqət olsa da, bu reallıqdır. O güzəşt Azərbaycan xalqına çox baha başa gəldi. Məsələ ondadır ki, 9 min kilometr ərazi güzəştə gediləndən sonra bu danışıqlar zamanı cümhuriyyət dövrünün dövlət xadimlərinin çıxışlarında və arxiv sənədlərində öz əksini tapıb.

Məsələ bundadır ki, ermənilər 1918-ci il mayın 13-dən iyunun 4-nə qədər aparılan danışıqlar zamanı Qarabağdan və Naxçıvandan imtina etdiklərini bəyan ediblər. Ermənilər özləri müstəqil millət, yaxud xalq olaraq belə bir iddiaları nəyin əsasında irəli sürürdülər? Onu qeyd edə bilərəm ki, ermənilər müstəqil olaraq hərəkət etmirdilər. Bu, İngiltərə, ABŞ, Fransa və gizli olaraq Almaniya tərəfindən diqtə olunurdu. O məsələlərin ictimaiyyətə çatdırılması, çox təəssüflər olsun ki, bizim imkanlarımız daxilində olmadığı üçün çoxları indiyə qədər bundan məlumatsızdır. İndi yaxşı haldır ki, bu məsələlər dövlət başçısı tərəfindən öz əksini tapır.

***- Həmişə belə bir sual yaranır: necə oldu ki, sovet Rusiyası Azərbaycan torpaqlarını işğal edəndən sonra, sözün əsl mənasında torpaqlarımızı hərraca qoydu?***

- Bunun cavabını Tarix İnstitutu tapıb və cavabını verib. İşğaldan sonra, təkcə 1920-ci il aprelin 29-dan avqustun 1-dək Azərbaycanda nə az, nə çox, 48 min adamı güllələmişdilər. Sual olunur, bunun səbəbi nə idi və bu işdə kimlərdən istifadə etmişdilər? Təbii ki, ermənilərdən istifadə olunmuşdu.

Araşdırmalar göstərir ki, Sovet hökuməti rusların milli dövləti deyildi. Rus xalqı bu dövləti yaratmamışdı. Mənim apardığım tədqiqatlar, əlimdə olan sənədlər bu fikri söyləməyə əsas verir. Sovet hakimiyyətini quranların İsveçrə bankındakı hesablarına baxsanız, artıq bu fikir tam şəkildə yəqinləşir. Bundan sonra əsas məsələ Bakı nefti idi. Azərbaycan xalqına qarşı törədilən cinayətlərin əhəmiyyətli nöqtəsində Bakı nefti durur. Təsadüfi deyil ki, hələ 1918 - XX əsrin birinci yarısında dünya siyasətində söz sahibi olan Uiston Çörçilin bir sözü var, o deyir: “Neft məsələsində Bakı neftinin tayı-bərabəri yoxdur, əgər neft kraliçadırsa, Bakı onun tacıdır”. Bu sözlərin arxasında nələr gizlənir? Düşünən insan, məlumatlı insan başa düşər ki, söhbət nədən gedir... Ona görə də cümhuriyyətin tanınmaması məsələsində həmin dövlətin ən böyük şirkətlərinin, o cümlədən Nobellərin, Rokfellərin “xidmətləri” var. Azərbaycan torpaqlarının hərraca qoyulması da bu məsələ ilə bilavasitə bağlıdır...

Məsələ burasındadır ki, cümhuriyyəti tanımamaq və sonradan torpaqları bölüşdürmək, o cümlədən də Zəngəzuru... O zaman AXC-ni Sovet Rusiyası tanımaqdan tamamilə imtina etmişdi. O biri ölkələrə də Amerikada oturan bankirlər tərəfindən bu tapşırıq verilmişdi. Bu tapşırıq həm qardaş Türkiyə ilə, həm də Azərbaycanla bağlı idi. Prosesdə ermənilərdən canlı ölüm aləti olaraq bizə qarşı istifadə edilib və indi də istifadə olunur. Mən bir neçə dəfə Zəngilan, Füzuli, Cəbrayıl rayonlarına getmişəm. Orada gördüklərim bu fikri söyləməyə tam əsas verir.

**Müsahibəni videoformatda hafta.az saytında izləyə bilərsiniz.**

Zəngəzur məsələsinin bu şəkildə işğalı bilavasitə başda Allah tərəfindən lənətlənmiş, torpağın da qəbul etmədiyi Leninin razılığı ilə Stalin, Orconikidze, Çeçerin, Lev Qaraxan (erməni idi) Kirov və bir sıra sovet hökumətinin rəhbər vəzifələr tutan adamlarının iştirakı ilə edilirdi. Əsas həlledici ideyanı verən Stalin və Orconikidze idi. Nə üçün Zəngəzurun qərb hissəsini ermənilərə verdilər? Zəngəzurla bağlı 1920-ci ilin mayın 12-dən bilavasitə avqustun 10-na qədər Sovet hökuməti rəhbərliyi Azərbaycanla geniş şəkildə danışıqlar aparırdı. Nərimanov sözün əsl mənasında çırpınır və ətrafındakılar da xəyanət edir. Onun bir nümayəndəsi var, bunu Zəngəzura göndərirlər. Söhbət 23 iyul 1921-ci ildə Ocaqqulu Musayevdən gedir. Zəngəzura göndərilən Ermənistan nümayəndəsinin fitnə-fəsadı ilə ermənilərin tərəfinə keçir və təbliğ etməyə başlayır ki, Şərqi Zəngəzur Ermənistan SSR-in tərkibinə keçsin. Bu adam sonradan həbs edilir. Nərimanov Moskvaya aparılır, 1925-ci ildə öldürülür.

> “ 8 Noyabr Zəfərinin ardınca Zəngəzur dəhlizi və onun zəfəri gəlir

1928-ci ildə kolxoz quruluşunu tətbiq etməyə başladılar. Sonra həmin adamı reabilitasiya edib Laçın rayonunda kolxoz təşkil etdilər, Şuşada da həmin adamın adına küçə verdilər. Bu hadisə təsadüfi deyildi. Mən 1921-ci il mayın 12-dən sonrakı dövrə qayıdıram. Burada elə intensiv danışıqlar gedir ki, Nərimanov nəyə desən əl atır. Nəhayət, 1920-ci ilin mayın 30-da bəyanat qəbul edilir, burada adda saxtalaşdırma gedib, aldadılıb.

1920-ci ildə məxfi olaraq ermənilərlə Sovet hökuməti arasında imzalanan 10 avqust müqaviləsinə əsasən, Zəngəzurun qərb hissəsi Ermənistan tərəfinə verilir. Bura 4 rayon daxildir, ümumi sahəsi 4,5 min kvadrat-kilometrdir. O zaman bütün danışıqlar gedərkən bu barədə Azərbaycan tərəfinə xəbər verilmirdi. Bu fakt da mövcuddur. Nərimanov bunların boğazında bir sümük olub ilişdiyi üçün 1920-ci ildə Nərimanovu Moskvaya apardılar. O zaman Azərbaycana rəhbərliyi Kirov, sonradan isə Mirzoyan edirdi. Yəni bu 1932-ci ilə qədər olub. Bir faktı da deyə bilərəm ki, 1932-ci ildə Mircəfər Bağırovu Azərbaycan SSR Nazirlər Sovetinin sədri təyin edərkən onun yerini Rubenov tuturdu. Yəni Zəngəzurun qərbinin ermənilərə verilməsi bir ilin, ayın söhbəti deyil.

Birinci qərarı 1920-ci il avqustun 10-da, qəbul olunan məxfi müqavilə ilə veriblər. Bu proses 1929-cu ilin fevral ayının 18-nə qədər baş verib. Sovet hökuməti məxfi olaraq köçürmə planına davam edib. 1923-cü ildə məxfi qərar qəbul olunub ki, 500 min erməni indiki Ermənistan ərazisinə köçürülməlidir. Beləliklə, erməniləri Göyçə gölü ətrafındakı ərazilərə və o cümlədən Zəngəzura köçürüblər. Burada etnik, demoqrafik mənzərəni dəyişəndən sonra Ermənistanı qurublar... Ovaxtkı Azərbaycan SSR-nin rəhbərləri də azərbaycanlılar deyildi. 1928-ci il mayın 29-da İrəvan şəhərini və onun ətrafındakı torpaqları güzəştə gedəndə milyonlarla azərbaycanlının ata-babasından soruşmuşdunuzmu bu torpaqları niyə verirsiniz?!

***- Nəyə görə bu torpaqlar güzəştə gedilməliydi?***

- Bu, hüquq və tarixi nöqteyi-nəzərdən ağır səhv idi. O zamana qədər Avropanın hüquq sistemində belə prisident var idi. 1814-1815-ci ildə Vyana konqresində Fransanın məğlub ölkə kimi əraziləri bölüşdürülməli idi. Fransanın xarici işlər naziri Taliran həmin legitimlik hüququ prinsipindən istifadə edib, ona imkan vermədi. Fransanın əraziləri 1792-ci il əraziləri sahəsinə qaytarıldı, yəni ərazi bölünmədi. Söhbət ondan gedir ki, bu torpaqda fransızlar Adəm və Həvvanın zamanından yaşayıb. Eləcə də cümhuriyyəti quranlar Avropa hüquq sistemindən xəbərsizdirlərmi?

Xeyr. Azərbaycan torpaqlarını hərraca qoyanda soruşmaq lazım idi ki, sən bunu hansı səlahiyyətlə, əsasla, hüquqla edirsən? Milli Şura o səlahiyyətlərə malik idimi? Malik idisə, niyə referendum keçirmədin? Məsələ burasındadır ki, 23 maya qədər İrəvan məsələsi müzakirə olunmayıb.

Əslinə baxanda ermənilər indiki Ermənistan ərazisində dövlət qurmaq istəmirdilər. Onların əsas istəyi Türkiyənin şərqindəki torpaqları ələ keçirmək idi. Söhbət 8 vilayətdən gedirdi. Belə olan vəziyyətdə türk ordusu öz gücünü göstərdi və bu gücləri diz çökdürmüşdü. Mayın 23-dən sonra Azərbaycandan 11 nəfər nümayəndə heyəti iştirak edib.

Danışıqlar zamanı bunlara təklif ediblər ki, gəlin ermənilərdən deyil deyil, gürcülərdən və sizlərdən ibarət konfederasiya yaradaq. Yaxud da təklif olunurdu ki, ayrı-ayrılıqda ermənilərin yaşadıqları ərazilər iki dövlət arasında bölüşdürülsün. Azərbaycan tərəfi buna razı olmayıb. Arqument odur ki, 11 nəfərin imzaladığı bir məktub var: əgər biz ərazini güzəştə getməsək, onlar bizi qıracaqlar.

Məgər bu arqumentdirmi? Axı onlar gözləyirdi ki, sən nə verəcəksən. Doğrudur, müharibə zamanı ermənilərin xəyanətkar kütləsi nə az, nə çox, Gümrü ətrafına toplaşmışdı. Məsələnin maraqlı tərəfi budur ki, Gümrünü yox, İrəvanı güzəştə getmədilər. Həmin güzəşt Azərbaycan xalqına çox baha başa gəldi. Nəticədə, son 103 il ərzində Azərbaycan xalqı özünün 2.5 milyon nəfər adamını itirdi. Ərazisindən 9 min kvadratkilometrini vermişdi, sonra 20.8 min kvadratkilometr ərazini də - Göyçəətrafı əraziləri və Zəngəzurun qərb hissəsi Ermənistan SSR-nin tərkibinə verildi.

500 min erməninin köçürülməsi məsələsinə qayıdıram. Köçürülmədən sonra, 1929-cu il fevral ayının 18-də qərar qəbul olundu ki, rəsmi olaraq Mehri rayonunun ərazisindən Zəngilan rayonu və Ordubad rayonunun ərazisində 46 kilometr ərazi olan Qafan rayonu, Sisyan daxil olmaqla Zəngəzurun 4 bölgəsi Ermənistana verilsin. Ölkə başçısının dediyi kimi, bu, Türk dünyasının kürəyinə sancılan bir xəncər idi.

Sonrakı dövrlərə nəzər salsaq, artıq Zəngəzur monoqrafiyası hazırlanıb, artıq redaktədədir, çapa təqdim olunacaq. Bütün arxiv səndləri, mənbələr qaldırılıb. Birmənalı şəkildə sübut olunur ki, Zəngəzur qədim Azərbaycan torpaqlarıdır. Ədalətsiz olaraq 4 bölgə - Qarakilsə, Sisian, Görus, Qafan bilavasitə Azərbaycan torpaqları Ermənistana verilib.

***- Ötən tarix bu gün də təkrar olunur. Proseslərə Zəngəzur dəhlizindən baxsaq, Azərbaycan üçün hansı yeni tarix yazılır? Bu gün regionda hansı üstünlüklərin yarandığını söyləmək olar?***

- Cənab Prezident 18 illik prezidentliyi dövründə beynəlxalq tədbirlərdə etdiyi bütün çıxışlarında bu məsələyə xüsusi diqqət yetirib. Dəfələrlə deyib ki, Zəngəzur Azərbaycan torpağıdır, Göyçə Azərbaycan torpağıdır, İrəvan Azərbaycan torpağıdır və biz azərbaycanlılar o torpaqlara qayıdacağıq. Bu qayıdış başlanıb. Bu ərazi qədim İpək yolunun bir hissəsidir.

Mənim uşaqlığım Zəngəzurda keçib, Zəngəzurda anadan olmuşam. O yerləri - Araz qırağından tutmuş, Xustub dağına qədər gəzmişəm. Azərbaycanın hər yeri incidir, qızıldan qiymətlidir. Dövlətimizin başçısı çox böyük istedad sahibidir, istər diplomat, istər dövlət başçısı, istər tarixçi alim kimi yeritdiyi siyasət tam şəkildə əmin olmağa imkan veir ki, hər şey onun dediyi kimi olacaq. Zəngəzur dəhlizi işə düşəcək, strateji nöqteyi-nəzərdən bu bizim ölkəmizi qardaş Türkiyə ilə birləşdirmək üçün çox böyük imkanlar yaradacaq. Bu məsələlərin həlli artıq gündəmdədir. Mən şahidi oldum ki, o ərazilər necə tikilir, necə quruculuq işləri gedir. Tam əminliklə deyə bilərəm ki, 8 Noyabr zəfərinin ardınca Zəngəzur dəhlizi və onun zəfəri gəlir. Qəti əminəm ki, bu torpaqlar bizim dədə-baba torpaqlarımızdır və biz azərbaycanlılar ora qayıdacağıq.

***✍ Tahirə Qafarlı***

## Müsahib

# Zəngəzurun “mübahisəli ərazi” elan edildiyi gün

***Azərbaycan Parlamentinin sabiq deputatı, Qərbi Azərbaycanda doğulub boya-başa çatmış, işləmiş Maksim Musayevlə “Həftə içi” üçün növbəti söhbətimizdə Zəngəzur dəhlizinin açılmasına Ermənistandakı sadə ermənilərin, siyasətçi və oliqarxların münasibəti, Paşinyana yaxın telekanal və saytların bu istiqamətdə apardığı təbliğat, Qarabağ klanının bundan sonrakı taleyi və s. haqda danışdıq.***



**Maksim Musayev,**
Azərbaycan Parlamentinin sabiq deputatı

***- Maksim müəllim, avqustun 10-da bolşevik Kommunist Partiyası tərəfindən Zəngəzurun “mübahisəli ərazi” elan edilməsindən 101 il ötdü. Bundan bir neçə ay sonra, yəni 1920-ci ilin noyabrında isə Zəngəzur Ermənistana verilib. Sizin atanız - rəhmətlik Talıb Musayev sovet dövründə Ermənistanda müxtəlif rayonların rəhbəri, eləcə də Ali Sovet sədrinin müavini vəzifələrində çalışıb. Atanızın Zəngəzurun verilməsi haqqındakı söhbətlərindən yadınızda nə qalıb?***

- Bilirsiniz, rəhmətlik atamın kitablarında bu haqda yazılıb. Bəzi faktları unutduğum və hazırda atamın kitabları yanımda olmadığı üçün sizə ətraflı məlumat verə bilmirəm. İnşAllah, növbəti dəfə bu haqda geniş danışarıq...

Təbii ki, Zəngəzur məsələsi bu gün xalqımız və dövlətimiz üçün ən aktual mövzulardan biridir. O haqda söhbət edə bilərik...

***- Sizin uşaqlıq və gənclik illərinizin xeyli hissəsi Qərbi Azərbaycan torpaqlarında, o cümlədən İrəvanda keçib. Erməni dilində də mükəmməl bilir və onların telekanal və saytlarını mütəmadi izləyirsiz. Hazırda Ermənistan cəmiyyətində Zəngəzurdan Naxçıvan və Türkiyəyə yol açılmasına ümumi münasibət hansı məcradadır?***

- Mütəmadi olaraq “Araçi”, “Horizonto”, “Şant” və “Epikentron” telekanallarını izləyirəm... Yenidən baş nazir seçilmiş Nikol Paşinyanın qalib gəldiyi 20 iyun parlament seçkilərindən öncə Ermənistan müxalifəti Zəngəzur dəhlizi məsələsində çox aqressiv idi. Bu da, təbii ki, erməni cəmiyyətinin ümumi ab-havasına da təsir göstərirdi. Naxçıvana yol açılmasının xeyrinə söz söyləyən ermənilərin dilinin kəsilməsi məsələsi də qoyulmuşdu. Ümumiyyətlə, radikal, irqçi müxalifətçilər “Zəngəzur” sözünün işlənməsinin də əleyhinə idilər, deyirdilər ki, nə “Zəngəzur”, “o torpaqların qədim erməni adı “Sünikdir”...

Ədalət naminə demək gərəkdir ki, Paşinyan komandası elə seçkilərdən əvvəl də Zəngəzur yolu məsələsini Ermənistanın gələcəyi üçün ağıllı şəkildə həll etməyə çalışırdı. O cümlədən çalışırdılar ki, Ermənistandakı və xüsusən Zəngəzurdakı ermənilərin bu problemə baxışında müsbət dəyişiklik formalaşdırmağa çalışırdılar. Yadınızdadırsa, Paşinyan Zəngəzurdakı kilsələrdən birinə gedəndə ibadətgahın keşişi onun salamını almadı və ondan kilsədən çıxmasını tələb etdi. Sonradan həmin keşiş, demək olar ki, kilsədən qovuldu. Bundan sonra Paşinyan tərəfdarı olan jurnalistlər yerli əhaliyə, yəni Zəngəzurun həmin ərazisindəki ermənilərə bəhs edilən keşişin buraya qonaq gəlmiş Paşunyana, ölkənin faktiki liderinə qarşı özü də bizim üçün müqəddəs bir məkan olan kilsədə bu cür davranışına necə qriymət verməläri haqda sual etdilər. Sorğuda iştirak edən ermənilərin, demək olar ki, hamısı buna mənfi münasibət bildirərək “Sünik” əhlinin qonaqprəvər olmasını vurğulayıb. İstər sovet dövründə, istərsə də son onilliklərdə buraya gələn qonaqların və xüsusən dövlət, hökumət adamlarının yüksək səviyyədə qarşılandığı bildirilib.

> “ 20 iyun parlament seçkilərindən öncə Ermənistan müxalifəti Zəngəzur dəhlizi məsələsində çox aqressiv idi ”

Növbəti dəfə Sünikə gedəndə də Paşinyanı qovmağa cəhd etdilər. Nikol buna yenə dözdü. Və yavaş-yavaş Zəngəzurdakı ermənilərin Paşinyana qarşı olma tendensiyası zəiflədi. Paşinyanın tərəfdarları Zəngəzurda onun təbliğatıyla bağlı xeyli iş apardılar. Nəticədə Sünikdəki seçki dairələrindən Paşinyan üçün xeyli səs toplandı... Eks-prezidentlər Köçəryan və Sərkisyanın tərəfdarları olan namizədlərə səsvermə zamanı saxtakarlıqlara yol verildi. Ona görə də bir neçə vəzifəli şəxs həbs olundu.

Bir sözlə, hesab edirəm ki, son vaxtlar erməni cəmiyyətində aqressivlik getdikcə səngiməyə başlayıb. Məsələn, əvvəllər “Şuşi” yox, “Şuşa” sözünü işlədən siyasətçi və deputatlara çox sərt reaksiya verilirdi. Parlamentdə daimi komissiyalara üzvlər seçilərkən, bir də görürdün, deyirlər ki, filankəsi seçmək olmaz, o, bir dəfə “Şuşi” əvəzinə “Şuşa” deyib. İndi getdikcə kütlə və siyasi dairələr üçün belə şeylər adiləşir...

***- Görəsən, Ermənistandakı və xüsusən Zəngəzurdakı sadə ermənilərin özləri necə yanaşırlar Naxçıvana yolun açılmasına?***

- Bu günlərdə erməni telekanallarının birində Zəngəzurdakı 1929-cu ilədək Zəngilan rayonuna aid olmuş Nüvədi eləcə də qonşu Aldərə kəndləri haqqında bir süjetə baxdım. Yadımdadır ki, 1988-1989-cu illərdə həmin kəndlərin köçürülməsi zamanı o vaxt Mərkəzi Komitənin katibi olan mərhum Musa Məmmədovla birgə həmin kəndlərə mən də getmişdim. Nüvədi camaatı vuruşurdu ki, biz çıxmırıq. Onda kolxoz sədri kənddə 1000 nəfərdən çox, 300-dən çox ailəlik azərbaycanlı əhali olduğunu bildirmişdi. İndi o kəndin erməni icra nümayəndəsi jurnalistlərə bildirdi ki, Nüvədidə cəmi 143 erməni məskunlaşıb. Qonşuluqdakı Aldərədə isə bircə ailə yaşayır. Jurnalist həmin ailənin nümayəndəsindən soruşur ki, əvvəl burada kimlər yaşayıb? Cavab verir ki, azərbaycanlılar. Deyir, bəs bundan sonra azərbaycanlılar yenə qayıda bilərmi buraya? Erməni kəndli cavab verir ki, özümün, dədə-babalarımın şahid olduğumuza görə, son 100 ildə Aldərədən azərbaycanlılar 4 dəfə çıxarılıb, 4 dəfə də geri qayıdıblar. Belə gedəcəksə, yəqin ki, 5-ci dəfə də qayıdacaqlar...

Hökumətə yaxın media, sanki erməniləri dolayısı ilə azərbaycanlıların geri dönmə ehtimalı üçün hazırlayır... Mehrinin keçmiş dəmir yolu stansiyasında reportajdan bəlli oldu ki, orada bircə ədəd köhnə vaqon və bir neçə plakat qalıb. Stansiyanın binasında da bir erməni yaşayır. Dəmir yolu xəttindən əsər-əlamət qalmayıb. Zəngilan tərəfdən Naxçıvanadək hamısı sökülüb. Məlum oldu ki, vaxtilə ətraf ərazidə yaşayan ermənilərdən cəmi 30 faizə yaxını qalıb. İş yeri olmadığından əksəriyyəti köçüb. Sakinlərin sözlərinə görə, 1990-cı illərdə hərbçilər dəmir yolunun rels və şpallarını söküb harasa daşıyıblar. Deyiblər ki, prezidentin tapşırığı ilə sökülür... Bir sözlə, belə nəticəyə gəlmək olur ki, Ermənistanın hazırkı hökuməti sadə erməni camaatını psixoloji cəhətdən Zəngəzur dəhlizinin açılması və s. ilə bağlı yeniliklərə hazırlayırlar... Onlara dolayısı ilə anladırlar ki, artıq belə yaşamaq olmaz, qonşularla normal dolanıb inkişaf etmək lazımdır...

***- Yəni belə çıxır ki, əgər Robert Köçəryan, Serjik Sərkisyan və s. kimi Rusiya və digər ölkələrin agentləri hakimiyyətə gəlmək və s. məqsədlər üçün aranı qızışdırmasalar, adi ermənilərin çoxu Zəngəzur dəhlizinin və ümumiyyətlə, Azərbaycan və Türkiyə ilə sülh münasibətlərinin yaranmasına etiraz etməz...***

- Düzdür, müxalif liderlərin təbliğatı və öz içlərində türklərə olan nifrət sayəsində Zəngəzurdan yol açılmasına etiraz edənlər xeylidir. O da var ki, yavaşca “Axı bu işlərin bizə, Ermənistana da faydası olacaq, buradan dəmir yolu, avtomobil yolu çəkilsə, burada stansiya tikiləcək, yeni iş, qazanc yerləri açılacaq” deyənlər də artır... Erməni kanalları Naxçıvan və Zəngilan istiqamətindən Zəngəzur dəhlizinə tərəf yolların çəkilib asfaltlanmasının peykdən çəkilmiş kadrlarını nümayiş etdirirlər. Və Zəngəzurdan keçəcək 41 kilometrlik yolun da, yəqin ki, müəyyən razılaşmalar, müqavilələr əsasında çəkiləcəyini bildirirlər. Naxçıvan tərəfdən gələn asfalt yolun Ermənistan sərhədinə çatan yerində bir neçə bina tikilib. Erməni müxbirlər sual edir ki, bəs bu binalar hansı məqsədlə tikilib? Bəlkə Ermənistanla Azərbaycan arasında hansısa gizli razılaşma var? Sonda iki versiya irəli sürürlər: “Əgər Zəngəzur dəhlizi açılsa, orada gömrük məntəqəsi olacaq. Yol açılmadığı halda isə həmin binalarda hərbi hissə yerləşəcək”...

***- Yəqin, daha bundan sonra köçəryanların, sərkisyanların başçılıq etdiyi Qarabağ klanı Paşinyana qarşı ciddi bir iş görə bilməz?***

- Çox güman ki... Bilirik ki, Köçəryan da, Sərkisyan da Moskvanın adamıdır. Kreml 1988-1990-cı illərdə onların vasitəsilə Azərbaycana zərbə vurmağa çalışırdı. İndi hələlik belə bir məqsəd olmadığından onların o qədər də rolu yoxdur. Ona görə etiraz çıxışlarından başqa Paşinyana qarşı heç nə edə bilməyəcəklər...

***- Maksim müəllim, bəs görəsən, Ermənistanın oliqarxları Zəngəzur dəhlizinin açılmasına necə baxırlar?***

- Ermənistandakı oliqarxlar hələ ki səslərini içlərinə salıblar. Paşinyan hələ 2018-ci ildə hakimiyyətə gələndən onlardan çoxunun qanunsuz əməllərini, cinayətlərini aşkarlayıb. Ermənistanda əsas oliqarx “Çiçəklənən Ermənistan” partiyasının lideri Qagik Sarukyandır. Onun da səsi batıb. Hər dəfə erməni idmançıları xaricdən qayıdanda onların qarşılanmasında şəxsən iştirak edir, onlara müxtəlif mükafatlar təqdim edirdi. Bu günlərdə Tokiodakı olimpiadadan dönən gümüş, bürünc medal almış erməni idmançıları qarşılamadı... Bilirsiniz, artıq Ermənistanda siyasətçi oliqarx məfhumu getdikcə sıradan çıxmağa başlayır. Paşinyan hökuməti belə qəarar verib ki, ya siyasətlə məşğul olsunlar, ya da bizneslə..

Belə nəticəyə gəlmək olur ki, Sarukyansız Paşinyanın da vəziyyəti yaxşı olmayacaq. Onun əlinin altında, şirkətlərində azı 20 minə yaxın işçi var. Onları istənilən vaxt hakimiyyətə qarşı qaldıra bilər... Sarukyan da anlayır ki, Paşinyanla razılaşmasa, onun üçün də çətin olacaq... Seçkilərdəki qələbədən və parlament formalaşdıqdan sonra Paşinyan da özünü inamlı hiss etməyə başlayıb. Belə getsə, hələ xeyli müddət hakimiyyətdə qalacaq...

***✍ Sultan Laçın***

# Azərbaycanda buzlaqlar tamamilə əriyib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

## Layihə

***Son illər iqlim dəyişmələri və onun fəsadları bütün dünya ölkələrini narahat etməkdədir. Bu fəsadlar demək olar ki, heç bir ölkədən yan keçmir. Birləşmiş Millətlər Təşkilatının (BMT) iqlimlə bağlı hazırladığı sonuncu hesabatında da qeyd olunur ki, iqlim dəyişməsi planetin bütün bölgələrində müşahidə olunur, bu proses getdikcə daha da intensivləşir, yaranan tendensiyalardan bəziləri isə hər halda bu mərhələdə, artıq geri dönməzdir. İnsan fəaliyyətinin səbəb olduğu iqlim dəyişməsi, artıq bu gün planetimizin bütün bölgələrində çoxsaylı ekstremal hava hadisələrinə gətirib çıxarır.***



Tədqiqatlara görə, artıq ölkəmizin bəzi ərazilərində biomüxtəlifliyin azalması müşahidə edilir

Hesabatda vurğulanır ki, Yerin bütün iqlim sistemi dəyişir və bu dəyişikliklər atmosferin, okeanların, buz qatlarının və Yer səthinin vəziyyətinə təsir edir. Bu dəyişikliklərdən bir çoxu misilsizdir, dəniz səviyyəsinin yüksəlməsi kimi bəzi tendensiyalar isə yaxın əsrlərdə və hətta minilliklər ərzində geri çevrilə bilməz.

Məruzəni hazırlayan ekspertlər hesab edir ki, bəşəriyyət iqlim dəyişməsinin miqyasını məhdudlaşdırmaq gücünə də malikdir: atmosferə atılan zərərli tullantıları, o cümlədən istixana qazlarını əhəmiyyətli dərəcədə azaldaraq, qısa müddətdə havanın keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq və qlobal temperaturu sabitləşdirmək olar.

BMT-nin Baş katibi Antonio Quterreşin rəyinə görə, İşçi Qrupunun məruzəsi bütün bəşəriyyət üçün həyəcan siqnalından başqa heç bir şey deyil. ”Bu haray qulaqbatırıcıdır, təqdim edilən sübutlar isə danılmazdır”.

O xatırladıb ki, beynəlxalq cəmiyyət qlobal temperatur artımını 1,5 dərəcədən çox olmayan səviyyədə saxlamağa razılığa gəlib, lakin yaxın zamanda təcili tədbirlər görülməsə, bu hədd keçiləcək. ”Buna yol verməmək üçün qətiyyətli hərəkət etməliyik”, - deyə Antonio Quterreş xəbərdarlıq edib.

O qeyd edib ki, noyabr ayında Qlazqoda keçiriləcək iqlim konfransı ərəfəsində bütün ölkələr, xüsusən G20-yə daxil olan ölkələr, “sıfır emissiya” koalisiyasına qoşulmaq da daxil olmaqla, iqlim dəyişməsi ilə mübarizəyə sadiq olduqlarını bir daha təsdiq etməlidirlər: “”Sıfır emissiyalar” o deməkdir ki, karbon qazının emissiyalarının həcmi okeanlar və meşələr tərəfindən udulan həcmlərdən artıq olmasın. Hesabatda göstərildiyi kimi, insan fəaliyyətinin nəticəsində istixana qazı tullantıları, 1850-1900-cü illərdə qlobal iqlimin Selsi şkalası ilə təxminən 1,1 dərəcə istiləşməsinin əsas səbəbi olmuşdur. Bu səviyyənin önümüzdəki 20 ildə orta hesabla 1,5 dərəcəyə çatdığı və ya onu keçəcəyi gözlənilir. Bu hesabat önümüzdəki onilliklərdə reallığın necə olacağının sağlam qiymətləndirilməsidir. İndi bizim Yer iqliminin keçmişi, bu günü və gələcəyi haqqında daha aydın bir təsəvvürümüz var, bu isə, hara getdiyimizi, əlavə nə edə biləcəyimizi və gələcək dəyişikliklərə necə hazırlaşmağımızı anlamaq üçün çox vacibdir”.

Bu gün Azərbaycanda da qlobal iqlim dəyişikliyinin fəsadları müşahidə olunur. Məsələn, son illər isti hava dalğalarının 38-40 dərəcədən yuxarı qalxması, bunun davamlı olması çox böyük fəsadların ortaya çıxa biləcəyindən xəbər verir. Azərbaycanın bəzi ərazilərində biomüxtəlifliyin azalması müşahidə edilir. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti iqlim dəyişmələri üzrə milli səviyyədə fəaliyyətləri daha da genişləndirib. Belə ki, Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənədirilməsi, milli məlumatlarin hazırlanması kimi öhdəliklər götürmüş və bu öhdəliklər sistemli şəkildə yerinə yetirilmişdir. Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya edib. Bundan başqa, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına özünün Nəzərdə Tutulan Milli səviyyədə müəyyən edilmiş Töhfələrində qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürüb və hazırda həmin tullantıların azaldılması üçün müvafiq layihələrin reallaşdırılması davam etdirilir. Belə ki, ölkədə bərpa olunan enerjidən istifadənin genişləndiyi, karbonun udulması üzrə yeni meşə massivlərinin salındığı, Günəş elektrik stansiyaları üçün panelləri istehsal edən zavodun fəaliyyətə başladığı və elektrik stansiyalarında mazutdan istifadənin dayandırılması nəticəsində 1990-cı ildən indiyə qədər, təxminən, 600 milyon ton karbon tullantısı azaldılmışdır. Bütün bu tədbirlər Azərbaycan dövlətinin maliyyə vəsaiti hesabına həyata keçirilir.

> *“Son 20 ildə bizim buzlaqlar tamamilə əriyibdir. Ən böyük buzlağımız olan “Bazardüzü”, demək olar ki, yoxdur*



**Elman Yusifov,**
“Ekostil-Azərbaycan”
Təbiəti Mühafizə İctimai Birliyinin
sədri, ekoloq, dosent

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən “Ekostil-Azərbaycan” Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq, dosent Elman Yusifov deyir ki, qlobal iqlim dəyişikliyi son 100-150 ildə planetin çox ciddi probleminə çevrilib:** “Əslində bunun ətrafında alimlər indiyədək mübahisə edirlər. Bir qismləri deyir ki, bu ümumiyyətlə, planetin tsiklidir. Planetdə müxtəlif dövrlərdə Yerin istiləşmə, buzlaşma dövrləri olub, sonuncu üçüncü, dördüncü dövrlər olub və s. Digər alimlər isə hesab edirlər ki, mövcud vəziyyət sənayenin güclü inkişafı ilə bağlıdır və son 100 ilə təsadüf edir. Hər halda bu faktdır ki, iqlim dəyişkənliyi var və Azərbaycanda da özünü kəskin şəkildə ifadə edir. Mən peşəmlə əlaqədar olaraq bioloji müxtəlifliyi izləyirəm və son dövrlərdə də iqlim dəyişikliyinin Azərbaycanın bioloji müxtəlifliyinə təsirini qiymətləndirməyə çalışıram. Tam səmimi deyirəm ki, son 20 ildə bizim buzlaqlar tamamilə əriyibdir. Ən böyük buzlağımız olan “Bazardüzü”, demək olar ki, yoxdur. Yüksək dağ göllərimizin səviyyəsi 1-2 metr aşağı düşüb. Su resursları azalır, nəticədə qurunt sularının səviyyəsinin aşağı düşməsi ilə meşələrin qurumasına gətirib çıxarır. Buxarlanmanın artması isə torpaqların münbitliyinə mənfi təsir göstərir, şoranlaşmaya, səhralaşmaya gətirib çıxarır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesabatlarında da aydın qeyd olunur ki, son 100 ildə Azərbaycanda orta illik temperatur, təxminən, 1-1,5 dərəcə artmışdır. Bu, olduqca ciddi göstəricidir. İlk baxışdan adama elə gələ bilər ki, temperaturun 1 dərəcə artması ciddi nəticə deyil. Burada söhbət orta illik temperaturdan gedir. Yadımdadır ki, əvvəllər belə istilər 1 və ya 2 gün davam edərdi. İndi isə kəskin istilər həftələrlə davam edir, yəni problem çox böyükdür”.

Ekspert iqlim dəyişikliyinin Azərbaycan üçün hansı təhlükələr yarada biləcəyinə də toxunaraq vurğulayıb ki, temperaturun artması və qrunt sularının aşağı düşməsi, meşələrin əlçatmaz ərazilərində illərlə quru budaqların yığılıb-qalması, insanların təbiətə qarşı səhlənkar münasibəti nəticə etibarilə meşə yanğınlarına gətirib çıxaracaq:

“Digər ciddi problem su resurslarımızla bağlıdır. Azərbaycanin su ehtiyatları azdır və həmin ehtiyatlar da tranzit mənbələr hesabına formalaşır. Son illər onsuz da az olan su ehtiyatımız daha da azalıb. Bunun təzahürü Kürün qurumasında, Xəzərin əks istiqamətə nüfuz etməsində özünü göstərir. Bir məsələni də qeyd etmək istərdim ki, hazırda xeyli su anbarları tikilir. Əlbəttə, bu yaxşı haldır, minlərlə hektar torpağın dövriyyəyə qatılması, məhsuldarlığın artması, iş yerlərinin yaradılması və s. kimi imkanlar açılır. Burada da böyük bir problem var. Biz süni hövzələr yaratmaqla suyun buxarlanma səthini də artırırıq, yəni burada əks-əlaqə yaradıla bilər. Məsələn, qabaqcıl ölkələrdə həmin su anbarlarının üzərində xüsusi əksetdirici şarlar suyun üzərini tuturlar və günəşdən gələn şüanı əks etdirirlər. Bununla da suyun buxarlanmasının qarşısı alınır. Sonra kanallar örtülü olur və s. Ümumilikdə götürdükdə Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə intensiv tədbirlər həyata keçirir. Son dövrlərdə alternativ enerji ilə bağlı həyata keçirilən işlərin genişləndirilməsi böyük işdir.

Məlumdur ki, iqlim dəyişikliyinin ən əsas törədici faktorlarından biri karbon dioksiddir. Yəni yanacağın yanması nəticəsində atmosferə külli miqdarda karbon dioksid buraxılır. Bunun qarşısını almaq üçün indi böyük proqram həyata keçirilir. Səhv etmirəmsə, işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Günəş radiasiyasının bol olduğu Zərgilan, Cəbrayıl, Füzuli ərazilərində çoxlu günəş elektrik stansiyaları yaradılacaq. Bu da iqlim dəyişmələrinə qarşı vacib tədbirdir”.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ PSJ-nin yeni transferi Lionel Messinin formasına maraq gözləniləndən böyük olub. Paris təmsilçisi internet vasitəsilə argentinalı superulduzun formasını satışa çıxarıb. Klub ilk olaraq dünən gecə üzərində Messi yazılan 250 min ədəd səfər formasını satışa çıxarıb və cəmi bir saat ərzində hamısı satılıb. Qeyd edək ki, Messi PSJ ilə 2+1 illik müqavilə imzalayıb.

---

■ Bu ilin birinci yarımilində 21 mətbu nəşr uçota alınıb. Bunu “Ədliyyə xidmətləri: qeydiyyat və notariat orqanlarının fəaliyyəti” mövzusunda keçirilən onlayn brifinqdə Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin rəisi vəzifəsini icra edən Aslan Hacıyev bildirib. Onun sözlərinə görə, ümumilikdə uçota alınan mətbu nəşrlərin sayı 5382-yə çatıb.

---

■ Bu ilin 6 ayı ərzində 76 qeyri-kommersiya qurumu dövlət qeydiyyatına alınmaqla ümumilikdə qeyri-kommersiya qurumlarının sayı 4766-a çatıb. 4766 qeyri-kommersiya qurumunun 56-sı siyasi partiya, 332-si qeyri-hökumət təşkilatı, 209-u fondların payına düşür. Yerdə qalanları isə digər qeyri-kommersiya qurumlarıdır.

---



■ Azərbaycanda daha iki partiya ofislə təmin edilib. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2 siyasi partiyaya fəaliyyət göstərmələri üçün ofis sahəsi təqdim edilib. Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev və Yeni Zaman Partiyasının sədri Musa Ağayev fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

---

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2396 yeni yoluxma faktı qeydə alınıb, 674 nəfər müalicə olunaraq sağalıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 357 058 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 336 445 nəfər müalicə olunaraq sağalıb, 5 095 nəfər vəfat edib, aktiv xəstə sayı 15518 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 13 792, ötən müddət ərzində isə ümumilikdə 4 147 588 test aparılıb.

---



■ Rusiya müdafiə naziri Sergey Şoyqu və ABŞ müdafiə naziri Lloyd Ostin arasında telefon danışığı olub. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. ”Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqu ilə ABŞ müdafiə naziri Lloyd Ostin arasında telefon danışığı olub. Tərəflər strateji sabitlik üzrə ikitərəfli məsləhətləşmələrin nəticələri, eləcə də qlobal və regional təhlükəsizlik məsələlərini müzakirə ediblər”, -deyə Rusiya Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

---

■ Əfqanıstan hökumət qüvvələrinin bir müddət əvvəl geri aldıqları Şiberqan və Fərəh şəhərlərinin hava limanları “Taliban” tərəfindən ələ keçirilib. “RİA Novosti” xəbər verir ki, bunu radikal “Taliban” hərəkatının nümayəndəsi Zabiullah Mücahid açıqlayıb. “Şiberqan hava limanı təzəlikcə zəbt edildi. Düşmən ağır itki verib qaçdı... Həmçinin Fərəh hava limanı da ələ keçirildi”, - deyə Mücahid “Twitter” səhifəsində yazıb.

# Allergiya xəstəsi peyvənd olundu, vəziyyəti ağırlaşdı




***9 avqust tarixində Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, 11 nömrəli poliklinikada peyvənd olunan 27 yaşlı gəncin səhhəti pisləşib.***

Zərərçəkənin yaxınlarından hafta.az-a verilən məlumata görə, N.Xudiyev həmin gün Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, 11 nömrəli poliklinikaya gedərək “COVID-19”a qarşı peyvəndə olunmağı, lakin öncə yoxlanılmasını, analiz götürülməsini tələb edib:

“Nurlan Xudiyev məsləhət almaq üçün baş həkimə müracət etmək istəyib. Baş həkim yerində olmadığı üçün onu müdir müavininin otağında həkim Aygün Bayramova qarşılayıb. Nurlan Xudiyev 7 müxtəlif allergiyasının olduğunu qeyd edib. Lakin ondan heç bir analiz götürülməyib və yoxlanış edilməyib, daha sonra isə peyvənd vurulub.

Peyvənddən sonra əvvəlcə qolu keyləşən, sonradan halı pisləşən Nurlan 2 gündür halsız vəziyyətdə uzanır, tərpənə bilmir, ayaqları tutulub, nəfəs almaqda çətinlik çəkir və şiddətli başağrıları var. 2 dəfə “təcili yardım” çağırılıb. Onlar da gəlib baxıb, qeydlər götürüb gediblər. Vəziyyətlə bağlı poliklinikanın da xəbəri var”.

Şikayətin ardından sözügedən tibb müəssisəsi ilə əlaqə saxladıq. Bildirildi ki, əgər xəstənin allergiyası var idisə, bununla bağlı sənəd təqdim etməli idi. İndi ailə Nurlanın sağlamlığına qovuşmasını və bu işdə səhlənkarlıq edən şəxslərə qarşı tədbir görülməsini tələb edir.

***✍ Banu***

# Ürək-damar sistemi xəstəlikləri olanlar...

## Diqqət

**Qızmar yay günlərində temperaturun yüksəlməsi, hətta sağlam insanların da səhhətinə mənfi təsir göstərir. Belə havalardan ən çox əziyyət çəkənlər ürək, qan-damar sistemi xəstəlikləri olanlardır. Qovurucu istilərdə bu həssas təbəqənin nümayəndələri özlərini hərzamankıdan daha yaxşı qorumalıdırlar.**



**■ Tibb elmləri doktoru, professor Aqil Qeybulla hafta.az-a açıqlamasında təəssüf hissi ilə bildirdi ki, bu gün insanların böyük əksəriyyətində, xüsusilə də 40 yaşdan yuxarı təbəqədə ürək, qan-damar sistemi xəstəliklərinə təsadüf edilir. Bu, hazırkı ekoloji vəziyyət, aşağıkeyfiyyətli qidalarla bağlıdır:**

“Bizim yoxlamalarlmız da göstərir ki, insanlarda bəd xolesterinin miqdarı həddindən artıq çox olur. Bu da gələcəkdə ürək, damar xəstəliklərinə, el arasında”kirəcləşmə” kimi tanınan problemlərə, sonda isə infarkta gətirib çıxara bilər. İsti havalarda ürək, damar xəstəlikləri ilə yanaşı, qanın laxtalanma sisteminin də pozulması baş verir. İnsanın dəri və nəfəs yolları vasitəsilə həddən artıq maye itirməsi qanın qatılaşmasına səbəb olur. Bu da onsuz da pis olan qanın hərəkət sürətini bir az da pisləşdirə bilər. Nəticə etibarilə vəziyyət pisləşə, ürək infarktı, insult kimi hallar yaşana bilər”.

Sonda professor ürək, damar sistemi xəstəlikləri olan şəxslərə mümkün qədər isti havaya çıxmamağı, zərurət yarandığı halda bol miqdarda maye qəbul etməyi tövsiyə etdi.

**■ Məsələ ilə bağlı hafta.az-a danışan həkim Elnur Eldaroğlu bildirdi ki, ürək, qan-damar sistemi xəstəliklərindən əziyyət çəkən insanlar yaxşı olardı ki, ilk növbədə qidalanmaya diqqət etsinlər. Bu mövsümdə xüsusilə duzlu qidalardan çəkinmək lazımdır:** “Duz suyu özündə saxlayır, bu halda təzyiqi qaldıra, ürək döyüntülərini sürətləndirə bilər. Təbii olaraq belə insanlar açıq günün altında qalmamalıdır. Başqa fəsillərdə gündə 2 kilometr gəzmək məsləhət verilirdisə, yayda bu tövsiyə olunmur. Heç bir xəstəliyi olmayan insanlar belə isti havalarda təngnəfəslikdən, halsızlıqdan əziyyət çəkir. Belə halda çox miqdarda su, su ilə bərabər mineral itirilir. Bu, ürək-damar xəstələri üçün ikiqat zərbə sayılır”. Həkim onu da söylədi ki, belə insanlar bacardıqca ağır qidalardan uzaq dayanmalı və yuxu rejiminə diqqət etməlidirlər:

“Şəxs fiziki işlə çox məşğuldursa çox yeyə bilər. Ürək-damar xəstəliyi olan şəxslərə ağır fiziki iş və çox yemək məsləhət görülmür. Həmçinin belə şəxslər normal yuxu rejiminə də diqqət etməlidirlər.

Yay aylarında gecə saatlarına qədər oyaq qalan insanlar onsuz da “Gec yatacağam”, - deyib, dondurma, desert kimi nə gəldi yeyə bilirlər. Bu da gec həzm edilməyə və təzyiqin qalxmasına səbəb olur”. Sağlamlığınızın qeydinə qalmaq üçün yaxşı olardı ki, mütəxəssislərin tövsiyələrinə əməl edəsiniz. Unutmayın ki, ürəyimiz bizim üçün dayanmadan döyünür. Onu yaxşı qoruyun, ürək bizim olsa da içində sevdiklərimiz var.

***✍ Banu***

## Problem

*Azərbaycanda taxıl biçini başa çatıb. Adətən, biçin başa çatandan sonra əksər kənd təsərrüfatı məhsul istehsalçıları əlavə xərclərin və vaxt itkisinin qarşısını almaq düşüncəsi ilə sahələrə od vururlar. Bu addımla onlar yerdə qalan kövşənliyi, yığılmamış samanı yandırmaqla torpağın münbitliyinin artacağını, alaqlara və zərərvericilərə qarşı mübarizənin səmərəli olduğunu güman edirlər.*



Əkin sahələrinin yandırılması faktları artıb, yoxsa azalıb?

# Biçindən sonra sahələri yandıranlar

Bəzən yanğın nəinki əkinəyararlı torpaqları, eləcə də meşə, meşə mühafizə zolaqlarını, əhalinin yaşadığı əraziləri və digər sahələri əhatə edir. Bu isə öz növbəsində ekoloji problemlərə gətirib çıxarır.

Bəs görəsən, bu ilin statistikası nə deyir? Biçin sahələrinin yandırılması ilə bağlı faktların sayında artım, yoxsa azalma var? Biçindən sonra əkin sahələrinin yandırılması hansı fəsadlar yaradır?

■ **Biçindən sonra əkin sahələrinin yandırılmasının fəsadlarına toxunan AMEA-nın müxbir üzvü, "Rüzgar" Ekoloji Cəmiyyətinin sədri İslam Mustafayev hafta.az-a bildirib ki, əslində bitki qalıqları müxtəlif üzvi maddələrin və qida elementlərin ən vacib resurslarından biri hesab olunur:**



**İslam Mustafayev,**
AMEA-nın müxbir üzvü, "Rüzgar" Ekoloji Cəmiyyətinin sədri

> *Əkin sahələrinin yandırılması eyni zamanda, atmosferə küllü miqdarda zərərli tullantıların atılması deməkdir*

"Onlarla düzgün və səmərəli davranmaq torpağın münbitliyini artırmaq, strukturunun, rütubət tutumunu yaxşılaşdırmaqla olduqca yüksək iqtisadi səmərə əldə etmək mümkündür. Torpağın flora və faunası bitki qalıqlarını parçalayaraq torpağın münbitliyinin artmasına, qida maddələrinin mübadiləsinə səbəb olur, torpağın strukturunu yaxşılaşdırır və suyun torpaqda daha asan hərəkət etməsinə, nəmliyin toplanmasına imkan verir. Taxıl sahələrinin biçindən sonra yandırılması isə torpaqdakı üzvi maddələrin itirilməsinə, humus qatının zədələnməsinə, torpaq mikroflorasının məhv edilməsinə, bütövlükdə torpaq münbitliyinin kəskin surətdə azalmasına gətirib çıxarır. Belə ki, kövşənliyi və ya samanı yandırdıqda bütün üzvi birləşmələr yanır və gələcəkdə bitkilərin böyümə və inkişafı üçün lazım elementlər Bu isə öz növbəsində torpağın münbitliyinə mənfi təsir etməsinə gətirib çıxarır. Kövşənliyin yandırılması nəticəsində torpağın həyat qabiliyyəti pisləşir, milyon illər ərzində formalaşmış faydalı mikroorqanizmlər məhv olur ki, onun da bərpası üçün əlavə resurslar və uzun müddət tələb olunur. Eyni zamanda, biçindən sonra taxıl sahələrinin yandırılması növbəti ildə həmin sahədə becəriləcək bitkilərin məhsuldarlığını 20-30 faiz azaldır, fermer həmin sahədən əvvəlki ilə müqayisədə daha az məhsul götürür. Amma bəzi fermerlər hesab edirlər ki, bu addımla onlar alaq otlarının məhv olmasına şərait yaradırlar.

Onlar dərk etmirlər ki, həmin sahələrin yandırılması həm də meşələr, ətraf ərazilər üçün təhlükə mənbəyidir. Azərbaycanda təqribən 600-ə yaxın meşə sahələri fermerlərin əraziləri ilə sərhəddir. Yəni, bu ərazilərə yaxın sahələr yandırıldıqda həmin yanğının meşə sahələrinə keçmə riski də böyük olur".

Ekspert vurğulayıb ki, əkin sahələrinin yandırılması eyni zamanda, atmosferə küllü miqdarda zərərli tullantıların atılması deməkdir: "Bu addım həm də qoşulduğumuz Paris anlaşmasına, İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına ziddir.Bu olduqca ziyanlı addımdır. Bizim də bu yöndə kitabımız var. Eyni zamanda, bir neçə il bundan əvvəl layihəmiz də var idi, fermerlərlə müvafiq söhbətlər aparmışdıq. Bizim layihə ərazimiz Şamaxıdan başlayıb Şəkidə başa çatırdı. Biz təbliğatdan sonra monitorinq də həyata keçirmişdik və nəticə olaraq həmin vaxt sözügedən ərazilərdə əkin sahələrinin yandırılmadığını müşahidə etmişdik. Deməli, bununla bağlı davamlı olaraq maarifləndirmə tədbirləri görülməlidir ki, fermerlər də biçindən sonra əkin sahələrinin yandırılmasının nə qədər fəsadlı olduğunu öyrənsinlər".

Yeri gəlmişkən, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən əkin sahələrinin yandırılması inzibati məsuliyyət yaradır. İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə görə, əkin yerlərinin yandırılmasına görə fiziki şəxslərin 400 manatdan 600 manatadək məbləğdə, vəzifəli şəxslərin 1500 manatdan 2000 manatadək məbləğdə və hüquqi şəxslərin 5000 manatdan 6000 manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulub.

■ **Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov da hafta.az-a açıqlamasında vurğulayıb ki, təmsil etdiyi qurum mütəmadi olaraq bununla bağlı fermerlər arasında maarifləndirmə işləri həyata keçirir:**

"Biz aprel ayından başlayaraq fermerlər arasında mütəmadi maarifləndirmə işləri aparmışıq. Bu işləri yerlərdə Dövlət Aqrar İnkişaf Mərkəzləri yerli icra strukturları ilə bərabər həyata keçirirlər. Bilirsiniz ki, mövcud qanunvericiliyə əsasən, biçindən sonra kövşənliyin yandırılması məsuliyyət yaradır. Nəticə etibarilə buna görə fermerlər cərimələnirlər. Təbii ki, burada məqsəd kimisə cərimələmək deyil. Maarifləndirmə işlərinin aparılmasında əsas məqsəd odur ki, torpağın üst qatı qorunsun. Kövşənliyin yandırılması torpağın üst qatına, humus qatına çox ciddi zərər verir və növbəti ildə məhsuldarlığa mənfi təsir göstərir. Artıq dördüncü ildir ki, bu məsələ təlim proqramına daxil edilib və mütəmadi olaraq iş aparılıb. Ən azı 2021-ci ilin monitorinq nəticələrini ötən illərlə müqayisə etsək, deyə bilərik ki, maarifləndirmə işlərinin ciddi nəticələri var. Bu il çox az sayda kövşənliklərdə yanğın hadisələri qeydə alınıb. Bunların da böyük əksəriyyəti yol kənarlarında maşınlar hərəkət edərkən atılan siqaret kötüyündən ya da plastik şüşələrin atılmasında baş verib. Amma fermerlər tərəfindən məqsədyönlü şəkildə kövşənliyin yandırılması halları bu il demək olar ki, qeydə alınmayıb. Onu da qeyd edim ki, bu kimi hadisələrin aradan qaldırılması və qabaqlayıcı tədbir kimi artıq 3 ildir ki, ölkəyə samandoğrayıcısı olan kombayn gətirilib. Biçin prosesi getdikcə həmin samanı aqreqat eyni zamanda kiçik



**Vüqar Hüseynov,**
KTN-in İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri

> *Bu il çox az sayda kövşənliklərdə yanğın hadisələri qeydə alınıb*

hissələrə bölərək sahəyə səpir. Bu da torpağın kalium gübrəsinə olan ehtiyacının ödənməsində mühüm rol oynayır. Maarifləndirmə işlərində fermerlərə bunun bütün mərhələləri izah olunur. Artıq fermer kövşənliyi yandırmağa ehtiyac duymur və biçin qurtaran kimi şum aparır. Bunun nəticəsidir ki, hər il məhsuldarlıqda artım müşahidə edilir. Biz bir daha əmin olduq ki, maarıfləndirmə işləri vacibdir.

Düzdür, fermer öz məsuliyyətini başa düşür, amma eyni zamanda, dövlət tərəfindən konkret istiqamətlər üzrə maarifləndirmə işləri aparılırsa, problem tam şəkildə aradan qaldırılır. Yəni, bir ənənə formalaşır və nəticə etibarilə 1-2 ildən sonra fermerə kövşənliyi yandırmayın deyə bir maarifləndirmə işi aparmağa ehtiyac qalmayacaq. Bütün vətəndaşlar bunu başa düşür və nəticəni daha çox məhsul almaqda görür. Bu baxımdan nazirlik maarifləndirmə işlərini mütəmadi olaraq davam etdirir".

*Sevinc*

# Rus qoşunları Azərbaycan-Ermənistan sərhədində

## Aktual

*Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zas Kəlbəcərdə baş verən olaylardan sonra Ermənistana səfər edib. İddia olunur ki, bu ərazilərə rus hərbçiləri yerləşdiriləcək. Sərhədlər müəyyənləşdirilmədən rus hərbçilərinin sərhəddə yerləşdirilməsi nə dərəcədə Azərbaycanın maraqlarına cavab verir və biz hansı addımları atmalıyıq. Hafta.az siyasilərin prizamasında məsələyə aydınlıq gətirib.*



Nə etməliyik?



**Asim Mollazada,**
Milli Məclisisn deputatı

■ **Milli Məclisisn deputatı Asim Mollazada hafta.az-a açıqlamasında bildirib ki, artıq sərhədlərin delimitasiyası ilə bağlı Azərbaycan, Rusiya, Ermənistanın iştirakı ilə birgə işçi qrup yaradılmalıdır.**

Onun sözlərinə görə, istənilən təşkilatın nümayəndəsi Azərbaycanın icazəsi olmadan gəlib Azərbaycan ərazisində heç bir iş görə bilməz. Deputat bu mənada hesab edir ki, istər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və hansısa digər qurumlar heç bir formada Azərbaycana təsir göstərə bilməzlər.

"Həmin qurumlar da bunu çox gözəl bilirlər. Xatırlatmaq istəyirəm ki, bu təşkilatın üzvləri Azərbaycana dost olan ölkələrdir. Və onlar Azərbaycanın maraqlarına zidd qərarların icrasında iştirak etməyəcəklər".

A.Mollazadə KTMT-nın sədrinin Ermənistana səfərini növbəti şou, növbəti hay-haray salmaq üçün edilən gedişlər hesab edib.

"Ermənilər və onlarn havadarları reallıqla hesablaşmaq istəmirlər və öz üzvlərini daha da dərinliyə sürükləmək istəyirlər. Mənə elə gəlir ki, Ermənistan isterik çağırışlarla özünü ağır vəziyətə salır. Ermənistan üçün yeganə çıxış yolu öz ərazi iddialarına son qoyaraq Azərbaycan və Türkiyə ilə əməkdaşlıq yolu seçməkdir".

■ **Politoloq Qabil Hüseynli bildirib ki, bu gün Rusiya bölgədə möhkəm yerləşməyə başlayıb ki, bu da Azərbaycanın mövqelərinə uyğun deyil. Onun sözlərinə görə, KTMT ciddi bir təşkilat deyil və təbii ki, bu prosesə qarşı addımlarımızı atmalıyıq.**

KTMT baş katibi Zarsın ali təhsilini Azərbaycanda başa vurduğunu deyən Q.Hüseynli Belarus generalının Ermənistan səfərini birmənalı qarşılamayıb. Onun sözlərinə görə, artıq Zarsdan əvvəl bölgəyə rus qoşunlarının yerləşdirilməsinə başlanıb və bu, region üçün yaxşı nələrsə vəd etmir.

"Rus qoşunları Qazax rayonunun 7 kəndində, Göyççə mahalının Azərbaycanla sərhəddə olan bir neçə mahalında görünməyə başlayıb. Yəni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Rusiyanın sərəncamında olan digər dövlətlərin təsir qüvvəsi olmayan bir təşkiatdır. Görünür ki, Rusiya regionda möhkəm yerləşmək istəyir. Bu, sözün əsl mənasında, Azərbaycanın maraqarına uyğun deyil. Sərhədlər delimitasiya, demorkasiya mərhələsinə keçmədən qoşunların yerləşdirilməsi, sərhədlərin həmin proseduraya uyğun müəyyənləşməsinə əngəllər yaradacaq. Bir qədər əvvəl Rusiyanın sərhəd qoşunları tək Gümrüdə idisə, indi Zəngəzurda, Qarabağda da var. Bunun qarşısını almaq üçün Türkiyə ilə məsləhətləşməliyik. Türkiyə bu məsələlərə müdaxilə etməlidir. Hər halda Türkiyə Təhlükəsizlik Şurasının iclasında Ermənmistanın sərhəddə törətdiyi təxribatlar müzakirə edildi və bu barədə Ermənistana xəbərdarlıq edildi. Yəqin ki, Türkiyə bu məsələyə səsiz qalmayacaq". Politoloq bildirir ki, KTMT-də olan Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Belarus özü də Azərbaycanın mövqelərini müdafiə edir.

■ **Politoloq Natiq Miri bildirir ki, KTMT-nın birgə qoşunarının Azərbaycan -Ermənistan sərhəddində yerləşməsi qərarı hələlik həllini tapmayıb. Onun sözlərinə görə, KTMT baş katibinin Ermənistana səfərinin qayəsindən birini də bu mövzu təşkil edir.**

"Ermənistan baş nazirinin KTMT-nın və yaxud da Rusiya qoşunlarının Azərbaycan-Ermənistan sərhəddində durması ilə bağlı konkret müraciəti var. Ona görə də hesab edirəm ki, bu məsələ məlum səfər çərçivəsində müzakirə predmetinə çevriləcək. KTMT üzvü olan ölkələrin ərazisində gərgin müstəvidə olan ərazilərdən biri Orta Asiyada, bilavasitə Əfqanıstandakı terror təşkilatı olan Talibanın son proseslərdəki hərəkəti ilə bağlıdırsa, digər məsələ KTMT üzvü olan Ermənistanın Azərbaycan sərhədlərini atəşlə pozması ilə bağlıdır. KTMT Baş katibinin Ermənistan səfərində müzakirə predmetini məhz Ermənistan-Azərbaycan sərhəddində KTMT qoşunlarının yerləşməsi məsələsi məşğul edəcək. Son zamanlar KTMT üzvü olan ölkələr içərisində bu təşkilatı ən çox ictimai rəyində aşağılayan ölkə məhz Ermənistandır. Bu mənada KTMT baş katibinin Ermənistana səfəri anlaşılandır".



**Qabil Hüseynli,**
politoloq

> *Ermənistanın yeganə çıxış yolu ərazi iddialarına son qoyaraq Azərbaycan və Türkiyə ilə əməkdaşlıq yolu seçməkdir*

> *KTMT ciddi bir təşkilat deyil və təbii ki, bu prosesə qarşı addımlarımızı atmalıyıq*

> *KTMT-nın birgə qoşunarının Azərbaycan-Ermənistan sərhəddində yerləşməsi qərarı hələlik həllini tapmayıb*

Politoloq hesab edir ki, əgər KTMT qoşunları və yaxud da Rusiyanın sərhəd qoşunları Ermənistanla sərhəddə duracaqsa, bu Azərbaycanın müdaxilə edəcəyi məsələ deyil. Onun sözlərinə görə, bu, Ermənistanla anlaşma şəraitində mümkün ola bilər.

"KTMT və yaxud Rusiya sərhəd qoşunları Azərbaycanla sərhəddə duracaqsa, bu təhlükəsizlik nöqteyinəzərindən Azərbaycanın maraqlarına uyğun deyil. KTMT deyiləndə, Rusiya anlaşılır. Rusiya da imperiyapərəst bir ölkədir. Hər zaman aqresiya, işğalçı siyasət yürütdüyü və qonşu dövlətlərlə əsasən güc dili ilə danışdığı üçün bu Azərbaycan üçün arzuolunan məsələ deyil. Azərbaycan şimal istiqamətindən işğalçı Rusiya ilə sərhəddir. Süni surətdə Azərbaycanın qərb istiqamətində bütün sərhəd boyunca işğalçı Rusiya qoşunlarının durmasını düşünəndə əlbəttə ki, təhlükəsizlik baxımından Azərbaycanın maraqlarına uyğun məsələ deyil.

Hər zaman belə bir vəziyyət yarandığı təqdirdə Ermənistan Azərbaycanla rus qoşunları arasında hərbi təxribat yaratmaqla süni gərginlik yarada və iki ölkə arasında toqquşmalara gətirib çıxara bilər".



**Natiq Miri,**
politoloq

Politoloq hesab edir ki, KTMT qoşunlarının sərhəddə yerləşməsi sərhədlərin doğru-dürüst müəyyənləşməsinə problem yarada bilər. Onun fikrincə, əgər bu gün Rusiya sərhəd qoşunları Ermənistanın daxilində olan Azərbaycanın anklav ərazilərinə - Qazağın bir neçə kəndi və Ermənistanın içərilərinə doğru yerləşən anklav ərazilərin Azərbaycana qaytarılması məqsədi ilə yerləşibsə bu müəyyən mənada Azərbaycanın siyasətinə uyğun davranış hesab oluna bilər. Burada Rusiyanın alt niyyətləri, geosiyasi maraqları varsa, bu Azərbaycan dövlətinin maraqlarına uyğun davranış deyil. Bu, sərhədlərin müəyyənləşməsi prosesinə müəyyən əngəllər törədə bilər.

Poitoloq bildirib ki, bu qoşunların sərhəddə yerləşməsi bir halda qəbul oluna bilər ki, Azərbaycanın işalda olan əraziləri - xüsusilə Qazağın 7 kəndi və Naxçıvanın Kərki kəndi və anklav əraziləri Azərbaycana qaytarılsın.

*Tahirə Qafarlı*

# Azərbaycanlı yanğınsöndürənlərin əzmi Türkiyədə rəğbət yaradıb

## Müsahib

***Qardaş Türkiyədə, təxminən, 10 gündür meşələr od tutub yanır. İlk gündən dövlət və xalq bir olaraq yanğınlarla mübarizə aparır, hətta dost və qardaş ölkələrdən də yardım dəstələri göndərilib. Yanğın ocaqlarının az bir qismi hələ də qalmaqdadır. Nə baş verir? Neçə illərdir mövzu etdiyimiz qlobal isinmənin bəlasıdırmı? Bəlkə onillərdir qardaş ölkəmizin başına dərd olmuş PKK terror ünsürlərinin təxribatıdır? Müəmmalı hallar var, yanğın ocaqlarının, təxminən, eyni vaxtda, həm də ölkənin fərqli yerlərində alovlanmasının terror qruplarının əli ola biləcəyi şübhəsini ortaya çıxarıb. Dövlət səviyyəsində istintaq da başladılıb, amma şayiələr davam edir...***

Əsas yanğın ocaqlarının Egey və Aralıq dənizləri bölgələrində baş verdiyini nəzərə alıb, İzmirdə fəaliyyət göstərən Çağdaş Azərbaycan Kültür Dərnəyinin sədr müavini Murtaza Qaraçanta ilə söhbətləşdim. İzmir şəhəri məhz Egey bölgəsinin mərkəzi sayılır, fəlakət bölgəsidir və yanğınların istisini izmirlilər daha yaxından hiss edirlər...

- Türkiyədə baş verən yanğının, artıq böyük qismi söndürülərək, nəzarətə götürülüb. Bəzi yerlərdə qalır, onların da söndürülməsi üçün gecə-gündüz qızğın əmək sərf olunur. Bu yanğınların yalnız Egey dənizi bölgəsində baş verdiyini söyləmək olmaz. Bölgələrdə yanğın ocaqları daha çox yayılsa da, ölkənin başqa regionlarında da meşələr od tutub yanır. Məncə, bu halların yaranmasında, xüsusilə də Aralıq və Egey dənizləri ətrafında aşırı istilərin davam etməsi birmənalı şəkildə rol oynayır. Digər yandan, fikir verirsinizsə, əsas yanğın ocaqlarının olduğu bölgələr çox böyük turizm mərkəzləridir. Bu yerlərdə turistlərin timsalında insanların çox olması da yanğının baş verməsinə mümkün şərait yaradır. Yəni insanların sayı artırsa, onların diqqətsizliyindən yaranan xoşagəlməz hallar da çoxalır.

***- Ümumilikdə götürsək, ölkənizdə belə bir statistik hesablama aparılıbmı ki, yanğınların məhv etdiyi meşə və digər yaşıllıqların ərazisi nə qədərdir?***

- Hələlik, yanğınlardan əlavə meşələrə dəyən ziyanın həcmini hesablamaq mümkün deyil. Bu sahə mütəxəssislərinin şəxsi qənaətincə, günümüzədək haradasa, təxminən, 15 minlə 20 min hektar arasında yaşıllıq ərazilər yanaraq məhv olub. Yenə təkrar edirəm: bu, mütəxəssislərin təxmini hesablamasıdır.

***- Yuxarıda qeyd etdiniz, amma yenə soruşum: Türkiyədə meşə yanğınlıarının səbəblərinə dair fikirlər necədir, ərazilər təbii səbəblərdən yanır, yoxsa təxribat izi var? Yəni PKK və ya onun törəməsi olan "Atəşin övladları"nın bu işdə əli olmasına inanırsınız?***

- Bununla bağlı hər hansı dəqiq fakt söyləmək mümkün deyil indiki məqamda. Əlaqədar orqanlar hazırda yanğınların başvermə səbəblərinə dair bütün şübhələr üzərində təhqiqat aparmaqdadır. Yəqin ki, araşdırmaların sonunda gəlinən qənaət ictimaiyyətə açıqlanacaq. Bu səbəbdən də yayılan şayiələrə uymamağı tövsiyə edərdim.

***- İlk gündən yanğın ocaqlarının söndürülməsi üçün Türkiyənin "Tək ürək" olduğunu bilirik. Yanğınların sürətlə genişlənərək qarşısıalınmaz hala gəldiyini düşünərək soruşmaq istərdim: yanğın çıxan ilk anda onları söndürməkdə gecikdiniz, yoxsa sadəcə göstərilən səylər alovun gücü qarşısında aciz olub? Niyə soruşuram, çünki kənardan baxanda, Türkiyə, sanki yanğına müdaxilədə gecikibmiş kimi görünür. Müxalifətiniz də yeri gələndə belə deyir...***

- Bu fikirlə razı deyiləm. Hər kəs bilməlidir ki, Türkiyə bütün sahələrdə inkişaf etmiş, güclü və böyük dövlətdir. Təbii ki, yanğına ilk başda müdaxilə edilib. Bölgəmizdə hakim olan əlverişsiz hava şəraiti, yəni isti və güclü külək səylərin müsbət nəticə verməsinə mane olub, yanğının daha geniş ərazilərə yayılmasına şərait yaradıb.

*"Bu çətin günlərdə Azərbaycanın birmənalı şəkildə Türkiyənin yanında olması xalqımız tərəfindən məmnuniyyətlə qarşılanıb"*



**Murtaza Qaraçanta,**
Çağdaş Azərbaycan Kültür Dərnəyinin sədr müavini



***- Bir düşündürücü fakt diqqətimizi çəkir: yanğın ocaqları ölkənizin fərqli bölgələrində və eyni vaxtda baş qaldırıb. Bu, sizdə şübhə oyatmır? Bayaq da dedim: bunun PKK tərəfindən təxribat məqsədilə edilməsi fikri yaranır hər kəsdə...***

- Yanğının Türkiyənin fərqli bölgələrində eyni zamanda ortaya çıxması, əlbəttə ki, çox adamda şübhə yaradır. Yenə deyirəm: istintaq araşdırmalarının başa çatmaması, ittiham edilən terror təşkilatlarının izini göstərən hər hansı dəlilin əldə olmaması qəti fikir söyləməyə imkan vermir. Məncə, indidən mühakimə müstəvisində danışmaq yanlış nəticələrə gətirib çıxarar.

***- Yanğın ocaqlarının söndürülməsi üçün ölkənizə xaricdən böyük dəstək verilir. Maraqlıdır, indiyədək konkret olaraq hansı ölkələrin dəstək qüvvələri hadisə yerində işləyir? Avropadan da dəstək sözü verildi, amma sonra məlum oldu ki, gəlməyəcəklər...***

- Xarici ölkələrdən verilən dəstək türk xalqının əzmini daha da gücləndirib. Bu səbəbdən də yanğının söndürülməsinə dəstəkçi olan bütün ölkələrə təşəkkür edirik. Bildiyim qədər, başda Azərbaycan olmaqla, Rusiya, Ukrayna və İranın göndərdiyi texnika və canlı qüvvə təbii fəlakət bölgəsindədir.

***- Maraqlıdır, Türkiyə kimi böyük əraziyə malik dövlətin nəyə görə belə fövqəladə vəziyyətlərdə ehtiyaclarını ödəyə biləcək sayda, məsələn, 10 dənə amfibiya təyyarəsi, 20 dənə helikopteri yoxdur? Bilmirəm, bəlkə də var, amma hesab edirəm, bu vasitələr yetərincə olsaydı, ilk andan müdaxilə edər və daha müsbət nəticələr verərdi...***

- Təbii ki, Türkiyə çox böyük ölkədir, bu cür yanğınların, təbii fəlakətlərin öhdəsindən artıqlaması ilə gələ biləcək gücdədir. Dövlətlərin bir-birinə istənilən təbii fəlakətin, o cümlədən məlum yanğın kimi hadisələrin qarşısını almaqda kömək etməsi, humanitar yardım olaraq, məsuliyyət daşıması xalqlar arasında yaxşı əlaqələrin və dostluqların yaranmasına şərait yaradır. Türkiyənin yanğınları söndürmək üçün yetərli sayda təyyarəsi və helikopteri mövcuddur. Hər dövlətin özünəməxsus fəaliyyət formaları mövcud olduğu kimi, Türkiyənin də var. Bu gün yanğınların söndürülməsində həm ictimai qurumlar, həm də özəl şirkətlər iştirak edir. Əvvəl də dediyim kimi, yanğına müdaxilədə gecikmə olmayıb. Sadəcə aşırı istilər və güclü külək yanğının qısa vaxtda sürətlə yayılmasına şərait yaradıb.

***- Belə düşünürəm ki, Azərbaycanın dəstəyi hansısa formada yardım filan deyil, öz ölkəmizdə yanğına müdaxilə sayılmalıdır. Biz-hər bir Azərbaycan vətəndaşı Türkiyəni öz ölkəmiz, öz vətənimiz bilirik. Hazırda onlar fəlakət bölgələrində türkiyəli həmkarları ilə birlikdə yanğını söndürməkdədirlər. Razı qaldınızmı onların fəaliyyətindən, işləri necə gedir, yerli əhali nə düşünür azərbaycanlı yanğınsöndürənlər haqda?***

- Bu çətin günlərdə Azərbaycanın birmənalı şəkildə Türkiyənin yanında olması xalqımız tərəfindən məmnuniyyətlə qarşılanıb. Yayılan videolardan da gördüyünüz kimi, əsasən də yerli camaat Azərbaycandan gələn yardım qrupunu bağrına basıb. Bir faktı da qeyd edim ki, Azərbaycan yardım dəstələrinin öz ölkələrindəymiş kimi ürəklə çalışması bütün Türkiyədə, xüsusilə də yerli camaatda ikiqat rəğbət yaradıb. Mən də şəxsən sizin vasitənizlə, ürəklərdə taxt quran qəhrəman yanğınsöndürənlərə minnətdarlığımı çatdırıram.

***- Qlobal istiləşmənin tam sürətlə davam etdiyini və irəlilədikcə də dünyanı fəlakətə sürüklədiyini nəzərə alsaq deyə bilərik ki, qarşıda ölkələri daha böyük faciələr gözləyir. Bu halda təbii fəlakətlərlə mübarizə məqsədilə hər hansı ad altında regional birlik təsis etmək olarmı? Məsələn, bu birliyi Türk Dövlətləri arasında yaratmaq və İranı, Pakistanı, Ukraynanı, hətta Rusiyanı, digər bəzi bölgə ölkələrini də ora qəbul etmək olardı...***

- Tamamilə doğrudur. Qlobal istiləşmənin mənfi təsirlərini gözümüzün qarşısında canlandırsaq, deyə bilərik ki, irəlidə daha böyük sürprizlərlə qarşılaşma ehtiimalı var. Odur ki, təbii fəlakətlərlə mübarizə məqsədilə hər hansı birliyin yaradılması zəruridir. Məsələn, dediyiniz kimi, Türk Dövlətləri, ya da ümumilikdə bölgə ölkələri arasında bu müstəvidə bir təşkilat təsis oluna bilər və bu zəruridir.

✍ **Vüsal**

# Plastik hovuzlar uşaq üçün təhlükəlidir?

## Məişət



***Qızmar yay günlərində sərinləməyin ən əlverişli yollarından biri suda vaxt keçirməkdir. Çoxları bunun üçün dənizə və yaxud qapalı hovuzlara üz tutur. Son zamanlar plastik şişirdilmə hovuzlarından istifadə də geniş yayılıb. Xüsusən də azyaşlılar üçün evlərin həyətində hovuz olması əvəzsiz əyləncədir.***

Hazırda belə hovuzların uşaqlar üçün olanının satış qiyməti ölçülərinə görə dəyişərək əsasən 20 manatdan başlayır. Nisbətən iri, böyüklərin də istifadə edə biləcəyi plastik hovuzlar isə 50 manat dəyərindədir.

Əyləncəni hiss etmək önəmlidir, ancaq bundan daha vacibi sağlamlığı qorumaqdır. Əgər plastik hovuzlardan istifadə edirsinizsə, xüsusən də azyaşlıları mikrob və bakteriyalardan qoruduğunuza əmin olmalısınız. Bu zaman şişirdilmə hovuzlardan düzgün istifadə qaydalarını bilmək mütləqdir. Bəs görəsən şişirdilmə hovuzlarda insanı hansı təhlükələr gözləyir? Ondan düzgün istifadə qaydası nə cürdür?

■ **Həkim-pediatr Vaqif Qarayev məsələ ilə bağlı hafta.az-a danışarkən bildirdi ki, plastik məmulatlarda insan orqanizminə ziyanlı olan kifayət qədər maddə var:**

"Bunu tibb elmi sübut edib, lakin kimdir fikir verən? Məhsulun materialını nəzərə alaraq istifadəsini məsləhət bilmirəm. Ondan istifadə edənlər üçün tövsiyəm hovuzu tez-tez dezinfeksiya etmələri olardı.

Biz qapalı hovuzlardan istifadə edərkən "xlor" qoxusunu hiss edirik. Yaxşı olardı ki, plastik hovuzlar vaxtaşırı yuyulsun və suyu dəyişdirilsin".

Həkim azyaşlıların sağlamlığı üçün dəniz suyu və qumunun vacibliyini xüsusi vurğuladı: "Yay aylarında dənizin suyu, qumu azyaşlılar üçün çox faydalıdır. Ona görə yaxşı olardı ki, valideynlər günəşdən qorunmaq şərtilə uşaqlarını dənizə aparsınlar. Praktika göstərir ki, tez-tez xəstələnən balacalar yayda dənizə gedirsə, qışda çox az xəstələnir. Maraqlısı budur ki, bizdə dənizə getmirlər. Sovet vaxtı SSRİ-nin ən ucqar nöqtələrindən Xəzər sahillərinə dincəlməyə gəlirdilər, amma bizimkilər burdan-bura getmirdilər".

✍ **Banu**



# Yasamal Rabitə Qovşağındakı problemlə bağlı

## Açıqlama

**Bir neçə gün öncə redaksiyamıza Yasamal Rabitə Qovşağında 1 aya yaxındır ki, elektron növbə sistemi və məlumat monitorlarının işləməməsi barədə şikayət daxil olmuşdu. Şikayətə əsasən yaranmış nasazlıq sıxlığa səbəb olur və binada pandemiya qaydaları gözlənilmir.**

Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib ki, qovşaqda elektron növbə sistemini təmin edən "AKİS" aparatında nasazlıq yaranıb. Hazırda avadanlığın bərpa olunması üçün müvafiq işlər aparılır. Bundan başqa binada pandemiya qaydalarına tam riayət olunduğu deyildi: "Yasamal Rabitə Qovşağında yerləşən "Şəbəkə" xidmət mərkəzində elektron növbə sisteminin işləməməsilə bağlı müraciətinizə "Azərpoçt" MMC-də baxılmışdır.

Qeyd etmək istərdik ki, elektron növbə sistemini təmin edən "AKİS" aparatında nasazlıq yaranıb. Bununla əlaqədar olaraq texniki xidmət göstərən şirkətə məlumat verilib. Hazırda avadanlığın bərpa olunması üçün müvafiq işlər aparılır. Elektron növbə sisteminin işləmədiyi müddətdə növbənin pandemiya qaydalarına riayyət edilməklə təşkili üçün poçt məntəqəsinə əlavə işçi qüvvəsi cəlb edilib. Yaranan narahatlığa görə vətəndaşlarıdan üzr istəyir, göstərdikləri anlayışa görə təşəkkür edirik".

✍ **Banu**




■ **Azərbaycanda uşaqlara "Muhammed" adının verilməsindən niyə imtina edildiyinin səbəbi bəlli olub.**

Hafta.az xəbər verir ki, "Ədliyyə xidmətləri: qeydiyyat və notariat orqanlarının fəaliyyəti" mövzusunda keçirilən onlayn brifinqdə nazirliyin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova vurğulayıb ki, "Muhammed" adının ədəbi yazılış forması ədəbi dil normalarına ziddir. Onun sözlərinə görə, bununla bağlı dəfələrlə Terminologiya Komissiyasına müraciət edilib: "Bu adın qoyulmasının düzgün yazılış formasına uyğun olmadığı, Məhəmməd adının düzgün yazılış forması olduğu bildirilib.



■ **Cəlilabad Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Mübariz Quliyev rayonda karantin qaydalarının pozulmasına görə vəzifədən azad edilib.**

Hafta.az xəbər verir ki, "qafqazinfo"nun əldə etdiyi məlumata görə, bir neçə gün öncə rayonda yerləşən şadlıq saraylarının birində keçirilən toy mərasimində karantin rejimi qaydalarının pozulması aşkarlanıb. DİN rəhbərliyinin tapşırığı ilə aparılan araşdırma zamanı həmin şadlıq sarayının sahibi ilə polis rəisinin yaxın münasibətlərinin olduğu müəyyən edilib. Məhz buna görə də M.Quliyevin karantin rejiminin pozulmasına göz yumduğu bildirilir. Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə Mübariz Quliyev vəzifəsindən azad edilərək sərəncama götürülüb.



■ **NATO tarixində ilk dəfə alyansa Baş katib olaraq qadın seçilə bilər. Bu haqda məlumatı İspaniyanın "El Pais" qəzeti yayıb. Məlumata əsasən, NATO-nun gələn il Madriddə keçirilməsi gözlənilən zirvə görüşündə yeni Baş katib seçiləcək.**

Qəzet yazır ki, hərbi alyansın tərkibində hazırki Baş katib Yens Stoltenberqi bir qadının əvəz etməsi ilə bağlı ümumi razılıq mövcuddur. Yeni Baş katibin axtarışları ilə bağlı danışıqlar payızda başlayacaq. Lakin bununla belə hərbi alyansa üzv olan ölkələrdə namizədlərin adları çəkilməyə başlayır.



■ **Valideylər bəzən övladlarına ya çizgi filmləri qəhrəmanlarının, ya da hansısa gülünc doğuran xarici adların qoyulmasını istəyirlər.**

Hafta.az-ın məlumatına görə, bu barədə Ədliyyə Nazirliyinin təşkil etdiyi onlayn brifinqdə nazirliyin Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidmətinin rəisi Reyhanə Kərimova deyib. Onun sözlərinə görə, rəhbəri olduğu xidmətin əməkdaşları tərəfindən valideynlərə həmin adların gələcəkdə uşaqların həmyaşıdları arasında gülüş mənbəyinə çevriləcəyi izah edilir. Xidmət rəisi bildirib ki, Nazirlər Kabinetinin qərarına əsasən də uşaqlara bu cür gülüş hədəfi ola biləcək adların qoyulmasına yol verilmir:



■ **Mediada yayılan informasiyalardan bəlli olduğu kimi, Azərbaycan Respublikasının müvəqqəti olaraq Rusiyanın rəsmən sülhməramlı kontingentinin nəzarətində qalan Xankəndi şəhərinin su təchizatında avqustun 7-dən ciddi problemlər yaranıb.**

Hafta.az xəbər verir ki, erməni nəşrlərinin yaydığı məlumata görə, artıq 5-ci gündür ki, Xankəndidəki 74 yaşayış binasına, yaxud şəhərin 30 faizinə, ümumiyyətlə, su verilmir. Dünən axşam saatlarında su təchizatı ilə məşğul olan qanunsuz qurum erməniləri şəhərin 20 küçəsində su verilişinin kəsiləcəyi ilə bağlı xəbərdarlıq edib. Qeyd edək ki, Xankəndidə son günlər ciddi su probleminin yaranmasına səbəb kimi kəskin istilərlə əlaqədar çayların quruması göstərilir.



■ **Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) tikintisi ilə məşğul olan ICGB AD layihə şirkəti 2021-ci ilin dördüncü rübündə Avropa İnvestisiya Bankının (EIB) üçüncü kredit transını almağa ümid edir. Bu barədə Trend-ə şirkətdən bildiriblər.**

Qeyd olunub ki, 2021-ci ilin ortalarınadək EIB-in təsdiq olunmuş krediti çərçivəsində 60 milyon avro vəsait əldə olunub: "Kreditin 30 milyon avro məbləğində birinci tranşı 2020-ci ilin avqustunda, eyni məbləğdə ikinci tranşı 2021-ci ilin yanvarında təqdim edilib. 35 milyon avro məbləğində üçüncü tranşın bu ilin dördüncü rübündə verilməsi planlaşdırılır.

# Ermənistandan gələn azərbaycanlıların haqlı tələbi

## Qayıdış

**_Son bir neçə gündə Nüvədi sakinləri öz yurdlarına qayıtmaq istəyi ilə bağlı rəsmi orqanlara müraciət ediblər. Ermənistandan qovulmuş azərbaycanlıların öz tarixi torpaqlarına, yaşadığı kəndlərə qayıtması məsələsi öz həllini necə tapa bilər? Ermənilər Qarabağda, Azərbaycan torpaqlarında qaldığı halda, azərbaycanlılar əsrlərdir yaşadıqları tarixi torpaqlarına niyə qayıda bilmirlər? Bu, ədalətsiz yanaşmadır. Sülh sazişi bağlanacaqsa, bu məqamlar nəzərə alınacaqmı? Bunun reallaşma imkanları nə qədərdir?_**





**Yasəmən Qaraqoyunlu,**
AMEA-nın elmi işçisi

*Erməniləri Azərbaycan torpaqlarında Rusiya qoruyursa, bizi də Ermənistanda Türkiyə orduları qoruya bilər*

■ **AMEA-nın elmi işçisi Yasəmən Qaraqoyunlu məsələ ilə bağlı hafta.az-a verdiyi açıqlamada bildirib ki, əgər Ermənistanla sülh sazişi bağlanacaqsa, orda Ermənistandan qovulmuş yarım milyon azərbaycanlının öz dədə-baba torpaqlarına qayıtması əsas tələb kimi qoyulmalıdır. Onun sözlərinə görə, sülh sazişi elə bir sənəddir ki, bağlanacağı təqdirdə biz rəsmi olaraq Ermənistan dövlətinin mövcudluğunu tanımış oluruq:**

"Tanıyacağıqsa, bunu o şərtlə qəbul edə bilərik ki, azərbaycanlılar öz tarixi torpaqlarına qayıtsın. O yerlər bizim tarixi torpaqlarımızdır. Orada bizim evlərimizin, mülklərimizin hamısı yerində qalır. Azərbaycanlılar öz torpaqlarına, eləcə də Nüvədiyə qayıtsın, Ermənistan içərisində onların bəlli bir statusları olsun. Status vermirsə, heç olmasa öz vətəndaşları olan azərbaycanlıları öz ölkəsində qəbul eləsin. Yəni biz öz yurdumuza qayıtmalıyıq. Ermənistan parlamentində vəkillərimiz olmalıdır. Hökumətdə təmsilçilərimiz olmalıdır". Y.Qaraqoyunlu hesab edir ki, bu gün Qarabağa gəlib məskunlaşan ermənilər burada qalıb yaşamaq istəyirlərsə, azərbaycanlıların öz yurdlarına gedə bilməməsi Azərbaycan xalqının haqqının pozulması kimi qəbul olunmalıdır. Tarixçi alim bildirdi ki, bu mənada Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların öz tarixi yurdlarına dönməsi, həm də onların pozulmuş hüquqlarının bərpası ola bilər:

"Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşı kimi Azərbaycan Parlamentində iştirak edə bilər. Cümhuriyyət dönəmində Azərbaycan Parlamentində erməni təmsilçilər var idi və bu gün Türkiyə Parlamentində də erməni təmsilçilər var. Türkiyədə ermənilər bir vətəndaş kimi necə xoşbəxt yaşayırlarsa, biz də Ermənistan dövlətinin vətəndaşı kimi parlamentdə təmsil olunmaqla, universitetlərdə oxumaqla, türk dili tədris olunmaqla, öz dini inancımızı məscidlərimizə gedib yerinə yetirməklə, xoşbəxt yaşaya bilərik".

Y.Qaraqoyunlu bildirir ki, regionda sülh dediyimiz yalnız bu şəkildə gerçəkləşə bilər. Onun sözlərinə görə, bu şərtər yerinə yetirilməyəcəksə, bölgədə heç vaxt sülh reallaşmayacaq: "Əgər sülh sazişindən söhbət gedirsə, bunun reallaşması BMT-nin Türkiyə-Azərbaycan dövlətlərinin nəzarəti altında ola bilər. Məlumdur ki, 5 illik sülhməramlılar Qarabağda erməniləri qorumaq adı altında oradadır. Azərbaycanlılar, türklər Ermənistana qayıtdığı şəkildə Türkiyə Ordusu Ermənistana girərək, orada azərbaycanlıların hüquqlarını müdafiə edib, yerləşməsi prosesinə nəzarət edə bilər. Yəni erməniləri Azərbaycan torpaqlarında Rusiya qoruyursa, bizi də Ermənistanda Türkiyə orduları qoruya bilər. Əgər ermənilər buna razılaşmasa, məsələ BMT-nin Nəzarət Komitəsinin nəzarəti altında da gedə bilər".

Tarixçi alim bildirir ki, Ermənistanda daşnak hökuməti devrilib bolşevik hökuməti qurulan zamanlarda oradakı azərbaycanlıların çoxu qaçıb Türkiyəyə, İrana getmişdilər. Erməni bolşevik hökuməti onların geri qaytarılması uğrunda mübarizəyə başladı. Ermənistanda dövlət qurmaq üçün əhali azlıq təşkil edirdi. Ermənistan iqtisadiyyatını da inkişaf etdirmək lazım idi. İrana və Türkiyəyə qaçmış azərbaycanlıların yarısı Ermənistana qayıdandan sonra Ermənistan dövlət kimi inkişaf etdi. Ermənistanda 2 milyona yaxın insan var. Bu sayla dövlət qurmaq olmaz. Bölgədə sülh yaratmaq istəyiriksə, Ermənistan beynəlxalq layihələrə qoşulsun. Ermənistan gerçək sülh olmasını istəyirsə, Azərbaycan vətəndaşı olan ermənilər Qarabağda xoşbəxt yaşasın, biz də gedib tarixi torpaqlarımızda - Ermənistanda sülh içində yaşayaq. Bu, mümkün deyilsə, heç bir sülh sazişinin bağlanmasından söhbət gedə bilməz. Bu baş verməsə, sülh mümkün deyil. Biz - Ermənistan vətəndaşları olan azərbaycanlılar həmişə Ermənistana qarşı mübarizə aparacağıq".

■ **Hərbi ekspert Şair Ramaldanov hafta.az-a açıqlamasında bildirir ki, bu gün azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarına qayıtması haqqında danışmaq bir qədər tezdir.**

Onun sözlərinə görə, əgər Azərbaycanda erməni millətindən olan vətəndaşlar yaşayırsa, Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Azərbaycanda yaşayan digər azsaylı xalqların nümayəndələri kimi, onlar da bütün konstitusion hüquqlara malik və bütün qanunlara riayət edərək yaşamalıdırlar. Azərbaycanlılar da əgər qayıdıb Ermənistanda yaşamaq istəyirlərsə, eyni yanaşma orada da olacaq. Ermənilərlə yanaşı yaşamaq istəyirlərsə, orada Ermənistan vətəndaşlığını qəbul etməlidirlər". Ş.Ramaldanov hesab edir ki, burada yanaşma sadədir. Ramaldanov bu barədə danışmağın tez olduğunu onunla əlaqələndirir ki, Ermənistanın bugünkü acınacaqlı vəziyyəti hələ davam edəcək. Ermənistanın yenə də xilaskarı yalnız Azərbaycan ola bilər. Müəyyən enerji yolları Ermənistandan açılsa, onlar da Gürcüstan kimi bu tranzitdən istifadə edə bilərlər. Digər tərəfdən, əgər Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlasa, o zaman Türkiyə də bu dövlətlər sərhədlərini açmağa hazırdır. Hazırda hər şey Ermənistandan asılıdır. Azərbaycan öz sözünü deyib və qonşuluq siyasətini köklənmiş və istiqamətləndirilmiş niyyətini göstərib. Eləcə də sülh müqaviləsinin bağlanması ilə əlaqədar öz fikrini bildirib. Gərək Ermənistan öz addımını atsın. Ola bilər ki, zaman gələcək, biz də bir qonşu kimi yaşaya biləcəyik və azərbaycanlılar doğma ata-baba yurdlarına gedə biləcəklər. Bu, gələcəyin sözüdür, bu gün bu barədə danışmaq tezdir. Ona görə ki, hələ də Ermənistan tərəfi dövlət sərhədində atəşkəsi pozur, hələ də orada revanşist fikirlər irəli sürülür. Hələ də sülh müqaviləsi bağlanmayıb. Bu gün müharibə şəraitindəyik". Ş.Ramaldanov hesab edir ki, sülh müqaviləsi bağlanan ərəfədə şərtlər iki dövlət arasında müəyyən ediləcək. Onun fikrincə, indidən bu barədə fikir bildirmək tezdir: "Hər halda Ermənistanın öhdəçiliyi olacaq. İndiki şəraitdə Ermənistan sərhəddə sülhə əməl etməlidir. Azərbaycanlıların Ermənistanda olan Azərbaycan kəndlərinə qayıtması beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır. Düşünürəm ki, gələcəkdə bu məsələ də qalxacaq".



**Şair Ramaldanov,**
hərbi ekspert

*Azərbaycanlıların Ermənistanda olan Azərbaycan kəndlərinə qayıtması beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır*

***Tahirə Qafarlı***

# İctimai nəqliyyat həftəboyu işləməlidir

**Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin sədri Musa Quliyev şənbə-bazar günləri ictimai nəqliyyatın yalnız vaksin olunan şəxslərin istifadə etməsi şərtilə açılmasını təklif edib.**

Bəs görəsən hazırkı vəziyyətdə bu qaydanın tətbiqi ilə ictimai nəqliyyatın fəaliyyətin tam bərpası nə qədər realdır? Ümumiyyətlə, həftəsonları yaranan nəqliyyat probleminin həlli nədir?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan nəqliyyat eksperti Rauf Ağamirzəyevin sözlərinə görə, ictimai nəqliyyatdan istifadə edən vətəndaşları həftənin günündən asılı olmayaraq "vaksin olunan" və "vaksin olunmayan" kimi qruplandırmaq yanlışdır".**

"Ümumiyyətlə, mən həftəiçi olduğu kimi, həftəsonları da ictimai nəqliyyatın işləməsinin tərəfdarıyam. Ondan istifadə edənlərin isə vaksin olunan və olunmayan kimi bölünməsinə qarşıyam. Zamanında qəbul edilmiş məhdudiyyət qərarı absurd idi.

Necə olur ki, virus həftəiçi yoluxmur, həftəsonu yoluxur?". Həmçinin ekspert ölkə üzrə



vaksin olunmuş vətəndaşların sayının qərarın ləğvi üçün kifayət etdiyini vurğuladı:

"Nəzərə almaq lazımdır ki, Azərbaycanda yetərincə vaksin olunan var. Bir doza ilə götürsək 5 milyon, 2 doza ilə isə 2 milyon əhali peyvəndlənib. Bu heç də balaca rəqəm deyil. Ona görə, həftəsonları ictimai nəqliyyatın fəaliyyətinə qoyulan məhdudiyyət qərarının ləğv edilməsinin tərəfdarıyam. İctimai nəqliyyat həftəboyu işləməlidir!".

***Banu***



# Şəhidlik statusunun verilməsində Türkiyə təcrübəsi

## Müzakirə

**Xəbər verildiyi kimi, "Maşın bazarı"nda axtarışda olan şəxsin özünü qumbara ilə partlatması nəticəsində xəsarət alan polis əməkdaşlarından biri vəfat edib. Belə ki, həmin polislərdən biri, Səbail Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsinin əməliyyat müvəkkili, polis kapitanı Elçin Səfərov aparılan bütün müdaxilələrə baxmayaraq xəstəxanada dünyasını dəyişib. O, hadisə zamanı bədənin müxtəlif nahiyələrindən qəlpə xəsarəti almışdı.**

Qeyd edək ki, bu fakt polis əməkdaşının vəzifə səlahiyyətlərini yerinə yetirərkən xəsarət alması və ya vəfat etməsi ilə bağlı ilk hal deyil. İndiyədək ölkəmizdə cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 99 polis əməkdaşı və hərbi qulluqçu həlak olub, 2640 nəfər xəsarət alıb. Cəmiyyətin böyük bir kəsimi isə hesab edir ki, belə hallarda həyatını itirən hüquq-mühafizə orqanları, təhlükəsizlik xidmətinin əməkdaşlarına istisnasız olaraq şəhid statusu verilməlidir.

Məlumat üçün bildirək ki, Azərbaycanda qeyri-döyüş şəraitində dünyasını dəyişən hərbi qulluqçulara və ya hüquq-mühafizə orqanlarının əməkdaşlarına şəhid statusu verilmir. Yalnız döyüşlər şəraitində canından keçən şəxslərə aidiyyəti orqanların müvafiq arayışı əsasında şəhid statusu verilir. Beynəlxalq təcrübədə isə bu məsələ fərqlidir. Məsələn,Türkiyədə şəhid statusu verilərkən hərbçinin, təhlükəsizlik orqanı və ya polis əməkdaşının həmin vaxt xidməti vəzifəsini həyata keçirib-keçirmədiyi əsas götürülür. Təhlükəsizlik orqanları əməkdaşları, polislər, sərhədçilər də daxil olmaqla bir çox sahələrdə Türkiyədə öz vəzifəsini icra edərkən hər hansı səbəbdən həyatını itirənlər şəhid hesab olunurlar.

Bəs, görəsən, Azərbaycanda şəhidlik statusu ilə bağlı Türkiyə təcrübəsindən istifadə edilə bilərmi? Bununla bağlı mövcud qanunvericilik bazasına dəyişiklik edilməsi nə dərəcədə vacibdir?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Fazil Mustafa deyib ki, riskli şəkildə vəzifə borcunu yerinə yetirən şəxslərə şəhidlik statusu verilməlidir:**

"Bu olduqca önəmli məsələdir. Bu, elə bir ekstremal vəziyyətdə baş verir ki, insanların həm də həyatını xilas etmək üçün cəhdlər göstərən konkrek şəxslərdən söhbət gedir. Onların bu proseslərdə aldığı xəsarət yaxud da həyatını itirməsi böyük bir ailəni başsız qoyur, həmin ailənin gələcəyini müəyyən çətinliklər içində qoyur. Ona görə də hesab edirəm ki, bu kimi məsələlərdə biz daha çox ümumi praktikadan,məsələn, Türkiyə, Rusiya praktikasından çıxış etməliyik. Türkiyə yanaşmasını mən də doğru hesab edirəm. Polis də terrorçuya qarşı mübarizə aparır, ordu da, başqaları da. Hamısı risklidir. Riskli şəkildə vəzifə borcunu yerinə yetirən şəxslərə qarşı bu status verilməlidir, hətta yanğınsöndürənlərə də. Bu kimi işlərdə insanlar həyatlarını riskə qoyurlar. Həyatını riskə qoyursa, cəmiyyət üçün, cəmiyyətin rifahı və təhlükəsizliyi üçün canını fəda edirsə, məsələyə də bu kontekstdən yanaşılmalı və qiymətləndirilməlidir".

■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü, hüquqşünas Sahib Məmmədov isə məsələ ilə bağlı hafta.az-a qeyd edib ki, Azərbaycan qanunvericiliyində bütün iş yerləri 14 risk qrupuna bölünüb:**

"Vəzifə funksiyalarını yerinə yetirərkən istənilən şəxs istehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyinə tutula bilər. Yəni, hər bir peşənin özünə görə riski var. Bizdə də hərbi qulluqçular, o cümlədən hüquq mühafizə orqanlarının işçiləri həmin risklərdən sığortalanırlar. Sizin qeyd etdiyiniz misalda hadisə sığorta hadisəsi kimi baş verib və qanunvericiliyə uyğun olaraq həlak olan yaxud da sağlamlığını itirən şəxslə bağlı sığorta prosesi işə düşür. Paralel olaraq, ailə başçısını itirməyə görə dövlətin pensiya sistemi işə düşür. Əgər həmin şəxs vəzifə səlahiyyətlərinin icrası zamanı xüsusi qəhrəmanlıq nümunəsi göstəribsə, artıq onun üçün təltif sistemi işə düşməlidir. Fikrimcə, belə hadisələrdə şəhidlik statusu verilməməlidir. Şəhid statusu vətənin müdafiəsində yalnız xarici düşmənlə deyil, daxili düşmənlə, tutaq ki, hansısa terror hadisəsinin qarşısının alınması və s. zamanı həyatını itirənlərə şamil olunmalıdır. Əslində bu dediyim məsələ də özündə müəyyən suallar yaradır. Ümumiyyətlə, şəhid statusu ilə bağlı qanunvericiliyə yenidən baxılmalıdır. Yəni, qanunvericilikdə təsnifatlaşdırma aparılmalıdır, yalnız şəhid statusu ilə kifayətlənilməməlidir". Hüquqşünas vurğulayıb ki, Azərbaycanda vəzifə borclarını yerinə yetirərkən həlak olan, yaxud da sağlamlığını itirən şəxslərin statusu haqqında ümumi bir qanunun hazırlanması zəruridir: "Fikrimcə, həmin qanunun bir hissəsi şəhidlik statusuna aid ola bilər, digər bir hissəsi başqa bir məsələlərə. Yəni, burada mütləq təsnifatlandırma aparılmalıdır. Umumi ad ya şəhid, ya da vətən uğrunda həlak olmuş şəxs ola bilər, amma qanunun içində qruplaşma olsun. Məsələn, xarici düşmənlə mübarizədə döyüş əməliyyatlarında bilavasitə iştirak edənlər. Ümumiyyətlə, bizdə döyüş əməliyyatları zonası haqqında qanun olmalı idi. Məsələn, Rusiyada belə bir qanun var. Qanunda bununla bağlı konkret zona müəyyənləşdirilib, o zonanı keçdinsə, orada şəxsin başına hansı hadisə gəldisə, statusu birmənalı olaraq bəllidir. Tutaq ki, həmin zonadan bir addım kənara çıxdıqda baş verən oxşar hadisə zamanı status da dəyişir. Bizdə də qanunvericiliyi bu cür təsnifatlaşdırmaq lazımdır. Deyərdim ki, məcəllə şəkilinə salmaq lazımdır". S.Məmmədov onu da qeyd edib ki, çalışdığı Sosial Tədqiqatlar Mərkəzi bununla bağlı hökumətə təkliflər də verib: "Biz bununla bağlı hökümətə təkliflər vermişik. Yenə də vermək olar. Bununla bağlı qanunvericilik təşəbbüsü hüququ olan subyektlərdən biri, habelə ictimaiyyət çıxış edə bilər. Kütləvi informasiya vasitələri bu məsələni aktuallaşdıra bilər və qərar qəbul edənlər bu barədə düşünə bilərlər. Ümumiyyətlə, hərbi qanunvericilik və bununla bağlı olan sosial qanunvericiliyimiz hamısı bir yerdə təftiş olunmalı və yenidən baxılmalıdır".



**Fazil Mustafa,**
millət vəkili



**Sahib Məmmədov**
ƏƏSMN-in yanında İctimai Şuranın üzvü, hüquqşünas

*Riskli şəkildə vəzifə borcunu yerinə yetirən şəxslərə şəhidlik statusu verilməlidir*

*Vəzifə borclarını yerinə yetirərkən həlak olan şəxslərin statusu haqqında ümumi bir qanunun hazırlanması zəruridir*

***Sevinc***

# Meşə giləmeyvələri - "gənclik sirləri"nin rəngi

## Menyu

***Meşə giləmeyvələri həm dadı, həm də faydalı xüsusiyyətləri ilə mövsümün ən sevilən qidaları arasındadır. Bu meyvələr kalsium, protein və maqnezium kimi minerallarla olduqca zəngindir. Çiyələk, moruq və böyürtkən ən çox istehlak olunan meşə giləmeyvələridir. Kompot və mürəbbənin də hazırlandığı bu meyvələrə təbii və qatqısız olduqları üçün xüsusi üstünlük verilir.***

Mövsüm ilə əlaqədar, demək olar, hər gün səyyar satışda meşə giləmeyvələrinə rast gələ bilərik. İndi bu bitkilərin qiymətləri də olduqca münasibdir. Əsasən, 1 kiloqramı 2 manatdan başlayaraq alıcılara təqdim edilir. Bəs görəsən, meşə giləmeyvələrini daha faydalı və ləzzətli hala gətirməyin hansı üsulları var? Bu faydalı məhsulları qışa nə cür tədarük etmək mümkündür?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan qida texnoloqu Ağa Salamov giləmeyvələrin bilmədiyimiz faydalarından söz açdı. O bildirdi ki, bu məhsullar, əsasən, qırmızı və bənövşəyi rənglərin tonlarında olduğundan, özlərində "gənclik sirləri"ni saxlayır:**

"Bu rəng piqmentləri "gənclik sirləri"nin xəbərvericisidir. Tərkiblərindəki antosyanin maddəsi insanı gənc saxlayır. Yaponiyanın Okinava adasında insanlar 100-120 il yaşayırlar. Adətən, bu uzunömürlülüyü dəniz sahillərində yaşayıb, dəniz məhsulları ilə qidalanmaqla əlaqələndirirlər. Alimlər isə hesab edir ki, "şirin kartof" bu insanlara uzunömürlü olmağa yardımçı olur. Qarağat, moruq, quşüzümü də belə maddələrlə zəngin giləmeyvələrdəndir".

> "Moruq və qarağat kimi giləmeyvələri yuduqdan sonra üstünə şəkər tozu əlavə edib, ağzını kip bağlayıb, qışa saxlamaq olar



**Ağa Salamov,**
qida texnoloqu



Ekspert meyvələri kip qabda, üzərinə şəkər əlavə edərək, bişirmədən qışa saxlamağı daha məqsədəuyğun hesab edir:

"Moruq və qarağat kimi giləmeyvələri yuduqdan sonra üstünə şəkər tozu əlavə edib, ağzını kip bağlayıb, qışa saxlamaq olar. Qışa saxlamağın ən yaxşı üsulu meyvəni bişirməməkdir. Bişmiş qida özünün vitamin və minerallarını itirə bilir".

A.Salamov həmin məhsullardan mürəbbədən əlavə cem düzəltməyin də faydalı olduğunu vurğuladı. Cem qış aylarında soyuqdəymənin ən unikal dərmanı hesab olunur.

Onun başlıca işi immun sistemini gücləndirməkdən ibarətdir. Həmçinin mütəxəssis qışa tədarük zamanı məhsullara şəkər tozu əvəzinə bal qarışdırmağı tövsiyə edir:

"Bilirik ki, şəkər tozu boş karbohidratdır. Tam sağlam qidalanmaq istəyən şəxslər giləmeyvələri qışa tədarük edən zaman şəkər tozu əvəzinə "cökə balı" ilə qarışdıra bilərlər.

Bu zaman balın qatılığını azaltmaq üçün 100 qram bala 20-30 qram su əlavə etmək olar. İndi adam var deyəcək ki, "Durub sağlam qidalanma haqqında danışır. Deyir, şəkər tozu yerinə bal qat". Təbii ki, bal qatmaq şərt deyil. Tamamilə qatqısız və şəkər qamışından əldə olunan şəkərdən də istifadə məqsədəuyğun olardı. Məqsəd faydalı meyvələri daha da şəfalı hala gətirməkdən ibarətdir.

✍ Banu

## "Kabinetim" ilə yeniliklərdən ilk sən xəbərdar ol!




**Abunəçilərə öz nömrəsinə tam nəzarət etmək, balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, tətbiqlərə qoşulmaq imkanı verən Azercell-in "Kabinetim" mobil əlavəsinin daha da təkmilləşdirilmiş versiyası artıq istifadə üçün mümkündür.**

"Kabinetim"in yeni versiyasında təqdim edilən ən son təkliflərı nəzərdən keçirmək üçün istifadəçilərin heç bir bölməyə keçid etməsinə ehtiyac yoxdur. Belə məlumatların "Kabinetim" hesabının ana səhifəsində əks olunması abunəçilərə xüsusi endirim və təkliflərdən dərhal yararlanmaq imkanını yaradır. Tətbiqin yeni versiyasında, həmçinin, "push" bildirişlərlə bağlı istifadəçi təcrübəsi təkmilləşdirilib. Bununla da abunəçilər hətta tətbiq açıq olmasa belə, təqdim olunan yeniliklər, kampaniyalar və digər məlumatlara ani giriş imkanı qazanmış olurlar. Abunəçilərin işini hədsiz dərəcədə asanlaşdıran "Kabinetim" həm iOS, həm də Android əməliyyat sistemlərində çalışır. Tətbiqi abunə haqqı olmadan App Store, PlayStore və Huawei AppGallery-dən pulsuz yükləmək mümkündür. "Kabinetim" avtomatik yenilənmədiyi təqdirdə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar. Həmçinin *110# kodunu yığmaqla da, tətbiqi yükləmək üçün birbaşa keçid linki əldə etmək mümkündür.

"Kabinetim"lə Azersell-in IVI, Bookmate, NNTV, SberZvuk və BluTV tətbiqlərinə abunə olmaq, həmçinin onları dostlarınla paylaşıb bonus balans qazanmaq mümkündür. Qeyd edək ki, "Kabinetim" tətbiqini yalnız smartfon deyil, həm də rahatlıqla veb platformada işlətmək mümkündür. Proqramdan istifadə zamanı meqabaytlar xərclənmir. Tətbiqin funksiyalarından faydalanmaq üçün sadəcə Azercell nömrəsi qeydiyyatdan keçirilməlidir.

Azercell şirkəti abunəçilərinə ən yaxşı rəqəmsal təcrübəni bəxş etmək məqsədilə "Kabinetim" tətbiqini daim inkişaf etdirəcək.

## "Nar" 50-dən artıq yeni baza stansiyası quraşdırıb

**Bütün ölkə ərazisində şəbəkəsini genişləndirməklə, əhalini yüksəkkeyfiyyətli və sürətli internetlə təmin etməyi hədəfləyən "Nar" 2021-ci ilin altı ayı ərzində 50-də artıq yeni baza stansiyası quraşdırıb.**




Ölkədə LTE/LTE-A texnologiyalı baza stansiyalarının sayının artması nəticəsində "Nar"ın 4G istifadəçilərinin sayı 28% yüksəlib. Bundan başqa, LTE texnologiyası ilə ötürülən data trafikinin həcmi 23% çoxalıb. Qeyd edək ki, "Nar" bu il işğaldan azad edilmiş bölgələri də öz şəbəkəsi ilə təmin etməyə başlayıb. Artıq Şuşa şəhəri, Hadrut yolu da daxil olmaqla Xocavənd və Cəbrayıl rayonlarında 2G, 3G və 4G texnologiyalı baza stansiyaları işə salınıb. Qeyd edək ki, "Nar" 8780-dən artıq baza stansiyası ilə ölkə əhalisinin 99,9%-ni, ölkə ərazini 90%-ni şəbəkə ilə əhatə edib.

## "Azercell" azad olunmuş ərazilərimizdə şəbəkəsini genişləndirir!

**44 günlük Vətən müharibəsində Azərbaycanın böyük qələbəsi nəticəsində doğma torpaqlarımızın azad olunması ölkəmizin həyatında yeni bir mərhələyə təkan verdi. İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması və bərpası istiqamətində dövlət səviyyəli layihələrin təşkil olunması da bundan xəbər verir.**

Şanlı Ordumuzun, demək olar ki, ardınca bütün cəbhə boyu irəliləyən "Azercell" komandası Cəbrayıl rayonundan başlayaraq azad edilmiş tarixi torpaqlarımızda, eləcə də qədim Şuşa şəhərində 4G şəbəkəsini işə salmağa müvəffəq olub. "Azercell" işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini vermək məqsədilə zəruri platforma olacaq mobil telekom infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Belə ki, işğaldan azad olunmuş torpaqlarımızda qurulmuş "Azercell" şirkətinə məxsus 60-dan artıq radio baza stansiyası 2G/3G/4G standartlarını dəstəkləyir. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər artıq "Azercell" şəbəkəsi ilə əhatə olunub. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalayıb. "Azercell" şirkəti öz növbəsində bu istiqamətdə hər cür fəaliyyətə dəstək olmağa hazır olduğunu bildirir. "Azercell"in əsas vəzifəsi və məqsədi işğaldan azad olunmuş ərazilərdə tam gücü ilə yeni nəsil şəbəkənin genişləndirilməsini sürətləndirmək və bu ərazilərə qayıdacaq əhalini mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməkdir.

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏKTUBU



İtaliyanın Milan şəhəri yaxınlığında poçt mərkəzində Roma papası I Fransiskə ünvanlanmış və içərisində üç güllə olan zərf aşkar edilib.

Zərfin içərisində, həmçinin Vatikanın maliyyə əməliyyatları ilə bağlı xəbərdarlıq yazısı yer alıb. Zərf İtaliya polisi tərəfindən müsadirə olunub. Hazırda insidentlə bağlı araşdırma aparılır. İlkin məlumatlara əsasən, məktub Fransadan göndərilib.

### Həftənin TƏŞƏKKÜRÜ



Yunanıstan Xarici İşlər Nazirliyi Azərbaycana təşəkkür edib. Bu barədə nazirliyin tvitter hesabında məlumat paylaşılıb. "Azərbaycana meşə yanğınlarında Yunanıstana dəstək və həmrəylik nümayiş etdirdiklərinə görə səmimi minnətdarlığımızı bildiririk", - XİN-dən bildirilib. Qeyd edək ki, Yunanıstan temperaturun kəskin artması fonunda müşahidə olunan meşə yanğınları ilə mübarizə aparır.

### Həftənin ARZUSU



ABŞ-ın keçmiş Prezidenti Donald Tramp yenidən ölkə prezidenti olmaq niyyətindədir. Bu barədə məlumatı Trampın keçmiş mətbuat katibi Şon Spayser açıqlayıb. Onun sözlərinə görə, D.Tramp 2024-cü ildə prezident seçkiləri ilə bağlı kampaniyada iştirak etmək istəyir. O həmçinin əlavə edib ki, Trampın sözügedən bu kampaniya üçün 102 milyon dolları var və Tramp öz yüksək reytinqini qorumaq üçün çalışıb. Qeyd edək ki, D.Tramp özü hələ bu məsələ ilə bağlı rəsmi açıqlama verməyib.

### Həftənin PUASI



ABŞ-a məxsus PUA texniki nasazlıq səbəbindən Şimali Dakota ştatında yerə çırpılıb. "Global Hawk" PUA-nın düşdüyü yerdə yanğın baş verib. Yanğın qısa müddətdə söndürülüb. Yerə çırpılan PUA 130 milyon dollar dəyərində olub. Qeyd edək ki, "Global Hawk" ABŞ Hava Qüvvələrinin 18 ayda qəzaya uğrayan üçüncü PUA-sıdır.

### Həftənin ETİRAFI



"Xankəndini tərk edirsən və dəli olursan, hər yerdə Azərbaycan bayraqlarıdır". Bu barədə narahatlığını erməni separatçı rejimin "deputat"ı Metakse Akopyan feysbuk səhifəsində bildirib. "Yolda üç azərbaycanlı dayanıb böyürtkən yeyir. Şuşa tamamilə dəyişib və eybəcər olub. Siz isə Araik (Arutyunyan) və Nikol (Paşinyan), asfalt çəkirsiz, camaatın başına çəkic atırsız, yalan danışırsız, yalan, yalan, yalan... Bu, sizcə xilas edəcək?".

### Həftənin MİLYARDERİ



Dünyaca məşhur pop müğənnisi Rihanna rəsmi olaraq milyarder elan edilib. Bu haqda məlumatı "Forbes" yayıb. Qeyd olunub ki, Rihannanın hazırkı sərvəti 1,7 milyard dollar təşkil edir. Bildirilib ki, sənətçi hazırkı sərvətinin əsas hissəsini (təqribən, 1,4 milyard dollar) 2017-ci ildə əsasını qoyduğu "Fenty Beaty" kosmetik şirkəti sayəsində qazanıb. Bununla yanaşı, Rihanna alt geyimlərinin istehsalı şirkəti olan "Savage x Fenty"də də hissələrə sahibdir. Şirkətin dəyəri 270 milyard dollar təşkil edir. İfaçı geri qalan sərvətini müğənni və aktrisa olaraq fəaliyyətlərindən əldə etdiyi gəlirlərdən toplayıb.

### Həftənin TRANSFERİ

Lionel Messinin PSJ-yə keçidi rəsmiləşib. Bu barədə Paris klubu rəsmi məlumat yayıb. Məlumata görə, ulduz futbolçu ilə 2+1 illik müqavilə imzalanıb. Argentinalının yeni klubunda illik maaşı 35 milyon avro olacaq. O, PSJ-də 30 nömrəli forma ilə çıxış edəcək. Qeyd edək ki, məşhur futbolçu 21 il Barselona klubunun şərəfini qoruyub, çoxsaylı mükafatlar əldə edib.

✍ *Azad Əliyev*

AVQUST 2021

## GÜNÜN FOTOSU



**Yunanıstanda meşə yanğınlarını söndürməkdə istifadə edilən helikopterlər...**

## Azərbaycanlı yanğınsöndürənlərin əzmi Türkiyədə rəğbət yaradıb

**Murtaza Qaraçanta,**
Çağdaş Azərbaycan Kültür Dərnəyinin sədr müavini

Bu çətin günlərdə Azərbaycanın birmənalı şəkildə Türkiyənin yanında olması xalqımız tərəfindən məmnuniyyətlə qarşılanıb.

Səh. 6

## STATİSTİKA



■ Dünyada pivənin 20 min növü var.

■ Dünyada il ərzində içilən koka-kola ilə 3500000 vannanı doldurmaq mümkündür.

■ Hazırda dünyadakı canlıların yalnız 20 faizi haqqında dolğun məlumat var.

■ Bir şüşə şərab üçün 600 üzüm salxımı lazımdır.



Səh. 6

## Yasamal Rabitə Qovşağındakı problemlə bağlı